www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 aprel 2017-ci il Bazar ertəsi № 65 (6679) Qiymətı 60 qəpik

**Xəbər**

## Qubada faciə: 5-ci dəfə ana olan qadın öldü

yazısı səh.14-də

**Gündəm**

### "4 günlük müharibə": işğala sonun başlanğıcı



Atəşkəs dövründə düşmənə ilk ciddi hərbi zərbənin vurulmasından 1 il ötdü; böyük güclər təcavüzkarı sülhə məcbur etməyə niyə tələsmir?..

yazısı səh.11-də

### Siyasi məhbusların yeni siyahısı qalmaqal yaratdı

yazısı səh.3-də

### Xəbərimiz olmadan yediyimiz at ətləri... məsuliyyəti kim(lər) daşıyır?

yazısı səh.13-də

### Nazarbayevin Bakı səfərindən əsas gözlənti

yazısı səh.6-da

### Şəhid hərbçinin qızı atasının məzarı üstündə skripka çaldı

yazısı səh.3-də

### Rusiya baş naziri gəlir bəyannaməsi təqdim etdi, bəs Azərbaycanda...

yazısı səh.9-da

### İrəvana sanksiyalar tətbiq edilə bilər - Qarabağa görə...

yazısı səh.11-də

### Müxalifətə ayrılan möhlət bitdi - maliyyə hesabatı verməyən partiyaları nə gözləyir?

yazısı səh.5-də

*Məşhur amerikalı politoloqdan ilginc proqnoz:*

### "Rusiyanı SSRİ-nin taleyi gözləyir..."

yazısı səh.3-də

### Cinayəti bilib gizlədənlərə qarşı cəza sərtləşdirilir, cinayətlər azalacaqmı? - Ekspert rəyləri

yazısı səh.5-də

### Zəhərli geyimlər: 1-2 manata satılan paltarlar xüsusilə uşaqlar üçün ciddi təhlükə mənbəyidir

yazısı səh.4-də

## İşğalçı ölkə hər an qarışa bilər - həftənin mühüm gözləntisi

# ERMƏNİSTAN ALTINA "GEC PARTLAYAN" SEÇKİ BOMBASI - DÜŞMƏN ÖLKƏ TARANA DOĞRU...

Qonşu ölkədə kritik seçkilər baş tutdu, ancaq...; Sərkisyan rejiminin seçki manipulyasiyaları nəticələrin legitimliyini şübhə altına qoyub; polis xalqı hədələdi; ekspertlərdən seçkisonrası ilginc proqnozlar; "Yaxın gələcəkdə Sərkisyan hər şeydən məhrum olacaq..."




yazısı səh.8-də

## Şəmkirin icra başçısı ölümdən döndü - gizlədilən bir avtoqəzanın ilginc təfərrüatları

Alimpaşa Məmmədov və iki oğlu ölümün pəncəsindən necə qurtulub, Bakıya gizli şəkildə göndərilən ağır yaralı kimdir? Şahidlər deyir ki...

yazısı səh.10-da



*İsgəndər Həmidov:*

### "Torpaqlarımızın azadlığı uğrunda hərəkətə keçməliyik"

yazısı səh.7-də



*Vahid Əhmədov:*

### "Rusiyaya qarşı sanksiyaların əksəriyyəti kağız üzərində qalıb"

yazısı səh.9-da



Elxan Şahinoğlu

### Tanınmış politoloq aprel şəhidlərinə kitab yazdı

yazısı səh.6-da

3 aprel 2017



## İşə qəbul olmaq istəyən müəllimlər sınaq imtahanı verdilər

**Aprelin 2-də Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi işə qəbul olmaq istəyən müəllimlər üçün elektron sınaq imtahanı təşkil edib. Lent az Təhsil Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, Bakı şəhəri 220 nömrəli tam orta məktəbdəki elektron imtahan mərkəzində keçirilən sınaq imtahanı kompüter vasitəsilə aparılıb. İlk dəfə keçirilən sınaq imtahanında Bakı və Sumqayıt şəhərləri daxil olmaqla, respublikanın 13 bölgəsindən müəllim olmaq istəyən 200-ə yaxın namizəd iştirak edib.**

Elektron sınaq imtahanının üstünlüyü ondan ibarətdir ki, iştirakçılar imtahan bitdikdə dərhal öz nəticələrini görmək imkanına malikdir. Sınaq imtahanında 13 fənnin hər biri üzrə ən çox bal toplamış 1 nəfər Təhsil Texnologiyaları Mərkəzi tərəfindən ödənişsiz olaraq müəllimlərin işə qəbulu üçün hazırlıq kurslarına qəbul ediləcək.

Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi elektron sınaq imtahanlarına olan böyük marağı nəzərə alaraq, imtahanları ayda 2 dəfə keçirməyi planlaşdırır. Növbəti elektron sınaq imtahanı aprelin 16-da keçiriləcək. Gələcəkdə sınaq imtahanlarının regionlarda da təşkil olunması nəzərdə tutulur.

Sınaq imtahanlarına yazılmaq üçün Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinə müraciət etmək mümkündür.



## ABŞ Suriyadakı əsas 3 hədəfini açıqladı

**ABŞ-ın yeni administrasiyası İŞİD terror təşkilatını Suriya prezidenti Bəşər Əsədlə müqayisədə daha böyük problem hesab edir. APA-nın məlumatına görə, bunu "Fox News" telekanalına müsahibəsində ABŞ-ın BMT yanındakı daimi nümayəndəsi Nikki Heyli bəyan edib.**

N. Heyli B. Əsədi hərbi cinayətkar adlandırıb, dinc əhaliyə qarşı kimyəvi hücumda günahlandırıb, əhaliyə humanitar yardıma icazə vermədiyini söyləyib: "ABŞ Bəşər Əsədi Suriyada sülhün əldə olunması yolunda bir problem sayır. Ümid edirik ki, Suriya xalqı naminə onun cinayət məsuliyyətinə cəlb edilməsinə nail olacağıq. Ancaq daha böyük problem İŞİD terror təşkilatıdır və öncə İŞİD-lə mübarizə aparmaq lazımdır. Daha sonra isə Suriya böhranının həllində sülh yolu ilə məşğul olmaq vacibdir. Bunun üçün isə Suriyada İran təsirinə son qoymaq və Bəşər Əsədi kənarlaşdırmaq lazımdır".

N. Heyli Suriyada durumun bu həddə çatmasında ABŞ-ın öncəki administrasiyasını da günahlandırıb: "Əgər geriyə baxsaq, biz hazırkı situasiyanın yaranmaması üçün müəyyən addımlar ata bilərdik".

# Sabiq MTN generalı: "Gizli nəsə qalıb ki?.."

**Sabunçu Rayon Məhkəməsinin binasında Bakı Şəhər Hərbi Məhkəməsinin icraatında olan MTN-in sabiq baş idarə və idarə rəisləri Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mürvətova, həmin qurumun vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun barəsində olan cinayət işi üzrə məhkəmə prosesi davam edir.**



Məhkəmə istintaqı çərçivəsində ötən iclasda baş verənlər barədə ətraflı məlumat vermişik. Bu yazıda isə həmin iclasda qeydə alınmış bir məqama diqqət yetirmək istədik.

Prosesin gedişində dövlət ittihamçısı söz alaraq, MTN tərəfindən telefon dinləmələri faktlarının araşdırılması və bu işin mexanizmi üzrə təfərrüatların açıqlanması üçün qapalı iclasın keçirilməsini zəruri saydığını dedi. Onun fikrincə, həmin iclasda yalnız məhkəmə kollegiyası, vəkillər, dövlət ittihamçıları və təqsirləndirilənlərin özləri iştirak etməlidir.

Məsələnin müsbət həll edilib-edilməyəcəyi hələlik məlum deyil, halbuki, məhkəmənin hazırlıq iclasının yekununda qəbul edilmiş qərarda bu halı nəzərdə tutan bənd var.

Dövlət ittihamçısının bu təklifinə təqsirləndirilən sabiq MTN generalı Teymur Quliyev sərt reaksiya verdi. Təqsirləndirilən bildirdi ki, cinayət işində "tam məxfi" qrifi ilə sənədlər xeyli saydadır və bunlarla tanış olmaq adi bir işdir. "Ancaq küçədən keçən uşaq bu gizli sənədləri oxumayıb. Gizli bir şey qalıb ki, qapalı iclas keçirirsiniz?", - Teymur Quliyev qeyd edib.

Təqsirləndirilən şəxs rəhbərlik etdiyi idarənin işində hansı əyintilərin olduğunu anlamadığını vurğulayıb: "Bizi ittiham edirlər ki, təlimatı pozmuşuq, məhkəmə qərarı olmadan telefonları dinləmişik. Əvvəla, bütün göstərişlər yazılı şəkildə nazirin dərkənarı ilə daxil olurdu. Mənim ixtiyarım çatmır ki, nazirdən bunlara görə məhkəmə qərarının olub olmamasını soruşum. Bu heç təlimatda da göstərilməyib. Məndən sonra bu göstəriş müavinə, oradan isə şöbə rəisinə, bölmə rəisinə və son nəhayətdə bilavasitə dinləmə ilə məşğul olan əməkdaşa ötürülürdü".

General Teymur Quliyev sözlərinə belə davam edib: "Burada bizimlə bir yerdə Fərhad Atayev oturub. Onun bu bölmədə işlədiyini və ümumiyyətlə, mövcudluğunu MTN-in özündə belə çox az adam bilirdi. Anlamıram, onun nə günahı var ki, ittiham edilir".

Bildirmək yerinə düşər ki, Fərhad Atayevlə bağlı hələlik proses boyunca heç bir zərərçəkmiş ittiham irəli sürməyib və təqsirləndirilən özü də hər hansı bir iclasda çıxış etməyib.

Onun qohumlarının fəal olmasını və demək olar ki, hər iclasda iştirak etmələrini də qeyd etmək olar.

Məhkəmənin növbəti iclası çərşənbə axşamı, aprelin 4-də keçiriləcək (Virtualaz.org)



## Trampın "Ferrari"si 270 min dollara satıldı

**ABŞ prezidentinin şəxsi avtomobili hərracda 270 min dollara satılıb. Virtualaz.org "Frans Press" agentliyinə istinadən xəbər verir ki, hərrac dünən Floridada "Auctions America" alqı-satqı meydançasında baş tutub.**

Əvvəllər Donald Trampa məxsus olmuş "Ferrari F430" avtomobilinin hazırkı prezident tərəfindən 2007-ci ildə alındığı və indiyədək təxminən 3800 kilometr yol qət etdiyi bildirilir.

Hərrac təşkilatçılarından biri deyib ki, adətən, məşhur adamların sürdüyü bu cür maşınlara 200 min dollardan artıq pul vermirlər. Bu dəfə isə məbləğ proqnozları üstələyib. Avtomobilin yeni sahibinin adı gizli saxlanılır.



## Bu gün Bakıda hava yağmursuz olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun gecə 3-5° isti, gündüz 10-14° isti, Bakıda gecə 3-5° isti, gündüz 10-12° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 772 mm civə sütunundan 769 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 85-95 %, gündüz 60-70 % təşkil edəcək.

Azərbaycanın rayonlarına gəlincə, aprelin 3-də arabir yağış, dağlıq rayonlarda qar yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə arabir duman. Arabir güclənən qərb küləyi gündüz şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun gecə 1-6° isti, gündüz 11-16° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 4-9° isti olacağı gözlənilir.



## Həbsxanada sabiq müxalifətçini bıçaqladılar

**Qırğızıstanın hüquq-mühafizə orqanları istintaq təcridxanasında keçmiş müxalifətçi deputat Sadır Japarovu bıçaqlanmış vəziyyətdə aşkar ediblər. Qeyd olunur ki, o, boynundan və qollarından çoxsaylı xəsarətlər alıb.**

Virtualaz.org "K-News" portalına istinadən xəbər verir ki, müxalifətçi "Ata-Jurt" partiyasından olan keçmiş deputatın vəziyyəti hazırda sabitdir, həyati vacib orqanları zədələnməyib.

O da qeyd olunur ki, Japarovun istintaq təcridxanasının əməkdaşlarına qarşı hər hansı şikayəti yoxdur. Təqsirləndirilən əməliyyat olunub və cərrahlar onun həyatını xilas edə biliblər.

## İşlədiyi türbədə 20 nəfəri zəhərləyib öldürdü

**Pakistanın Pəncab əyalətində dəhşətli cinayətin üstü açılıb. Lent.az BBC Turk-ə istinadən xəbər verir ki, Sarqodha şəhərində yerləşən sufi türbəsinin qarovulçusu Abdül Vahid bura ziyarətə gələn şəxsləri bir-bir qətlə yetirirmiş.**

Bildirilir ki, 50 yaşlı mühafizəçi ziyarətə gələn insanların tək olmasından istifadə edərək onları otağına dəvət edirmiş və onlara yemək təklif edirmiş. O, qurbanlarını zəhərləyib eldən salan kimi xəncərlə hücum edərək öldürürmüş. Psixi xəstə olduğu ehtimal edilən Abdül Vahidə bu işdə bir neçə nəfər də yardım göstərib.

A.Vahid ifadəsində deyib ki, ziyarətə gələn insanların onu öldürməsindən qorxurmuş və bu səbəbdən onları qətlə yetirirmiş. Lakin araşdırmalar zamanı məlum olub ki, öldürülən 20 nəfərin hamısı soyundurulduqdan sonra onlara çılpaq halda işgəncə verilib.

Qeyd edək ki, silsilə cinayətlərin üstü türbədən yaralı halda xilas olmağı bacaran bir qadının polisə müraciət etməsindən sonra açılıb.

YENİ MÜSAVAT
N 67 (6681) 3 aprel 2017

**Dünən aprel döyüşlərində şəhid olan pilotlarımız mayor Urfan Vəlizadə və mayor Təbriz Musazadənin il mərasimi keçirilib. azvision.az xəbər verir ki, anım mərasimində şəhidlərin hərbçi yoldaşları, ailə üzvləri, yaxınları iştirak ediblər.**

# Şəhid hərbçinin qızı atasının məzarı üstündə skripka çaldı



Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı, general-leytenant Ramiz Tahirov və digər yüksək rütbəli zabitlər də şəhidlərin məzarını ziyarət edib, ailələrinə başsağlığı veriblər. Şəhid pilot Urfan Vəlizadənin yoldaşı Könül Vəlizadə bildirib ki, geridə qalan bir il onlar üçün olduqca çətin keçib: "Urfansız çətindir. Onun üçün çox darıxıram".

Könül xanım Urfan Vəlizadənin məzarını ziyarətə gələn hər kəsə təşəkkür edib: "Bura gələn hər kəsə təşəkkür edirəm. Bizi tək qoymadılar. Hərbçi yoldaşları şəhidləri daim diqqətdə saxlayır".

Şəhidin qardaşı Vidadi Vəlizadə Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkür edib. Urfan Vəlizadənin qızı Zəhra Vəlizadə atasının məzarı başında skripkada ifa edib.



## "Tezliklə Avrasiya Birliyindən əsər-əlamət qalmayacaq"

### Bzejinski: "Rusiyanın yeri Avrasiya deyil, Avropadır, əks təqdirdə onu SSRİ-nin taleyi gözləyir..."

**ABŞ-ın, həmçinin dünyanın öndə gələn fikir adamlarından biri, geostrateq Zbiqnev Bzejinski Avrasiya Birliyinin yaxın 10 ildə dağılacağının proqnozunu verib. Musavat.com xəbər verir ki, amerikalı alim Rusiya mətbuatına verdiyi müsahibədə İttifaqa daxil olan liderlərin dünya görüşlərindəki dərin dəyişikliklərin onu bu fikrə gətirdiyini söyləyib .**

Bzejinski bu tezisini uzun müddətdir qeyd edir. O vurğulayır ki, Gürcüstan və Ukraynanın daxil olmadığı təqdirdə Avrasiya İttifaqı məhvə məhkumdur. Nəzərə almaq lazımdır ki, adları çəkilən hər iki dövlət hazırda Avropa Birliyi və NATO yolunda qəti addımlarla irəliləyir.

Politoloqun fikrincə, Rusiya çox arzulasa da, Orta Asiya respublikaları ittifaqa üzv olmağa o qədər də həvəsli deyillər. Onların içində əhalisinə görə ən çoxsaylı dövlət sayılan Özbəkistan müstəqillik məsələsinə olduqca həssas yanaşır və bu yolda hər hansı məhdudiyyəti gətirəcək addımlara gedən deyil.

"Avrasiya Birliyi reallıqla uyğun gəlməyən nostalgiyaya bənzəyir və "Yeni Rusiya imperiyasını yaratmaqla" bağlı istənilən ideya kənar dövlətlərin qəti müqaviməti ilə rastlaşacaq" - amerikalı politoloq qeyd edib: "Məsələ burasındadır ki, hətta İttifaqa üzv olan qazaxlar və beloruslar belə yeni yaradılan imperiyanın tərkib hissəsi olmaq istəmirlər. Həmin ölkələrin siyasi elitaları prosesə müqavimət göstərməyin ağır nəticələrini göz önünə alaraq bu cür dövlətin xüsusilə bir lider ətrafında qurulmasına imkan verə bilməzlər. Biz bunu Ukraynada aşkar surətdə gördük. Maraqlıdır ki, məhz Qazaxıstan vaxtilə belə bir İttifaqın qurulması təşəbbüsü ilə çıxış edib. Nursultan Nazarbayev hələ 1994-cü ildə Moskva Dövlət Universitetinin tələbələri qarşısında mühazirə söyləyərək Avrasiya Dövlətləri İttifaqı ideyasından bəhs etmişdi. Yeni Nazarbayevi bir növ bu ittifaqın atası saymaq olar. Lakin indi Nazarbayevin özünü Qazaxıstanın bu təşkilatda üzv olaraq müstəqilliyini itirməsi perspektivi narahat edir. Astana Gömrük ittifaqından heç bir fayda görmür. Qazaxıstanın ərzaq məhsulları, xüsusilə ət məmulatları Rusiya bazarına daxil ola bilmir. Bundan başqa, Rusiyanın elektrik enerjisi bazarına azad çıxış verilmir.

Elə Belarus lideri Aleksandr Lukaşenkonun da dilindən bənzər şikayətlər səslənir. Krım işğal olunduqdan sonra Rusiyaya tətbiq olunan sanksiyalar barəsində "mən ruslarla dostluğumu alverə çevirmərəm" deyən Belarus prezidenti indi Rusiyanın ona 15 milyard dollar borcu olduğunu iddia edir. Belarus Gömrük İttifaqı barədə sənədə uzun müddət qol çəkməyib. "Vaxtilə suverenlik ikona deyil. Hər şeyin bir qiyməti var. Əsas olan insanların rifahıdır" deyən Lukaşenko indi "Azadlıq və müstəqillik olduqca faydalıdır. Onun pulla ölçüləcək dəyəri yoxdur" kimi bəyanatlar verir", - deyə Bjezinski hər iki liderin dünyagörüşlərində yaranan dəyişikliklərə diqqət çəkib.

Bzejinskinin fikrincə, Rusiyada bir çoxları ümidlərini Çinlə yaradılacaq ittifaqa bağlayırlar. Məsələn, Vladimir Putinin ideya motorlarından biri hesab olunan akademik Sergey Qlazyev bu istiqaməti müdafiə edənlərdəndir.

"Lakin artıq həm Rusiya biznesi, həm də hakim elita Çinin Avropanı əvəz edə bilməyəcəyi rəyinə gəlib. Tam əksinə, Çin Rusiya ilə yaxınlaşmadan onu Avropa bazarlarından sıxışdırıb çıxarmaq üçün istifadə edir" - Zbiqnev Bzejinksi belə düşünür.

Bzejinski rusiyalı həmkarlarına Çinə müttəfiq kimi deyil, təhlükəli rəqib kimi baxmağı məsləhət görür. "Çinin Avropaya birbaşa ticarət əldə etmək üçün Orta Asiyaya strateji toxunuşu Rusiyanın iqtisadi hakimliyini zədələyir və onun həddən artıq zəifləməsinə gətirib çıxarır".

Amerikalı nüfuzlu politoloqa görə, Rusiyanın özündə də bununla bağlı ciddi diskussiyalar gedir. Lakin Rusiyanın yeri Avrasiya deyil, Avropadır. Əks təqdirdə onu SSRİ-nin taleyi gözləyir.

❑ Vaqif HÜSEYN

# Siyasi məhbusların yeni siyahısı qalmaqal yaratdı



### Mirvari Qəhrəmanlı: "Siyasi məhbus siyahısına qol çəkənlər gərək peşəkar olsunlar"



**Aprelin 1-də siyasi məhbusların yeni siyahısı açıqlanıb. Bununla bağlı Siyasi Məhbusların Müdafiə Mərkəzinin növbəti toplantısı keçirilib. Musavat.com xəbər verir ki, bu barədə Facebook sosial şəbəkəsində məlumat yayılıb. Toplantıda siyasi məhbuslarla bağlı durum müzakirə olunub.**

İclasda son zamanlar həbsdə olan bəzi siyasi məhbuslar azadlığa çıxdığına, siyasi motivlərlə yeni həbslər olduğuna görə siyasi məhbus siyahısının yenilənməsi qərara alınıb. Ümumilikdə 9 nəfərin adı siyahıdan çıxarılıb, 6 nəfərin adı siyahıya daxil edilib.

Qərara alınıb ki, azadlığa çıxdığına görə aşağıdakı şəxslərin adları siyasi məhbus siyahısından çıxarılsın;

1. İkram Rafiqoğlu (jurnalist)
2. Asif Lətifov- Prezident qvardiyasının keçmiş əməkdaşı
3. Əbdül Əbilov- blogger
4. Elvin Abdullayev- AXCP üzvü
5. Zahidov Rüfət- Qənimət Zahidin qohumu
6. Zahidov Rövşən- Qənimət Zahidin qohumu
7. Kişiyev Namiq- dini fəal
8. Nicat Əliyev- dini fəal
9. Zeynalabdin Bağırzadə (AXCP üzvü, Naxçıvan)

Eyni zamanda həbsi siyasi motivlərlə müşahidə olunduğundan və AŞPA- nın siyasi məhbuslarla bağlı məlum kriteriyasının tələblərinə cavab verdiyindən aşağıda adları qeyd olunan şəxslərin siyasi məhbus siyahısına daxil edilməsi qərara alınıb:

**1.** Elçin İsmayıllı (jurnalist, AXCP üzvü)
**2.** Mehman Qələndərov- blogger
**3.** Mehman Hüseynov- jurnalist- blogger
**4.** Sərdar Babayev (Hacıhəsənli)- dini fəal
**5.** Elxan İsgəndərov- MBH üzvü
**6.** Elnur Fərəcəov- AXCP üzvü

Beləliklə, hazırda Siyasi Məhbusların Müdafiə Mərkəzinin tərtib etdiyi siyasi məhbus siyahısında 162 nəfərin adı var.

Yeni siyasi məhbus siyahısı birmənalı qarşılanmayıb. Bu sahə ilə məşğul olan təşkilatlar, şəxslər arasında ikitirəlik yaranıb. Bir qisim hesab edir ki, ölkədə bu sayda siyasi motivlərlə həbs olunmuş şəxslər var. Bunun əksini düşünüb, siyahının şişirdilməsi ilə bağlı fikirlər irəli sürənlər də kifayət qədər çoxdur.

İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı "Yeni Müsavat"a açıqlamasında ölkədə Siyasi Məhbusların Müdafiə Mərkəzi adında qurum tanımadığını söylədi: "Belə mərkəzin adını ilk dəfə eşidirəm, amma bu sahədə yeni qurum yaradılıbsa, bunu müsbət qəbul etmək lazımdır. Ən azından siyasi məhbuslarin olmamasına onlar da çalışırlar. Yaxşı olardı ki, belə siyahıları xarici təşkilatlara göndərənə kimi, ölkə daxilindəki aidiyyəti qurumlara göndərəydilər. Əsaslandırmalıdırlar ki, bu şəxsləri niyə siyasi məhbus kimi qəbul edirlər. Düşünmürəm ki, hökumət bu siyahıdan qıcıqlanacaq. Beynəlxalq aləmdə siyasi məhbusların kriteriyaları var. Bunları əsaslandırıb, siyahını hökumətin qarşısına qoymaq lazımdır. Bir də görürsən ki, inzibati həbs cəzası alanları, cərimələnənləri siyasi məhbus elan edirlər. Çalışmaq lazımdır ki, siyasi məhbus siyahısına qol çəkənlər peşəkar insanlar olsunlar. Birmənalı şəkildə mən də deyirəm ki, ölkəmizdə siyasi məhbuslar var. 160 nəfərlik siyasi məhbus siyahısının hazırlanmasında iştirakım yoxdur. O siyahı ilə o zaman razı ola bilərəm ki, məhkəmələrin monitorinqini aparım, işlərlə yaxından tanış olum. Heç vaxt kiminsə fikri ilə oturub duran adam deyiləm. Monitorinq Qrupunun hazırladığı siyahıda iştirakım var. Hər ilin əfv öncəsi siyasilərin azad olunmasını ölkə başçısından xahiş edirik. Əfv üçün ərizə yazmayan şəxslərin belə azad olunmasını prezidentdən xahiş edirik. 160 nəfər bilmirəm ki, siyasi məhbuslardır yoxsa yox. Amma bəzi şəxslər var ki, onları ümumiyyətlə, siyasi məhbus hesab etmirəm. Lakin onların da adı siyahılarda var. İstənilən halda ölkədə siyasi məhbuslar var və ölkənin imici baxımından onlar azad olunmalıdırlar".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 67 (6681) 3 aprel 2017



## Aparatın tanımadığı Sərkisyan: xalq onun "qələbəsini" tanıyacaqmı?

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Serj Sərksiyanın seçkiöncəsi nigaranlığı, ora-bura vurnuxması əbəs deyilmiş. Qarabağdakı cinayətləri ilə hakimiyyət olimpinə yüksəlmiş erməni prezident 2 aprelin onun üçün asan keçməyəcəyini yaxşı bilirmiş. Budur, reallığı görmək üçün bütöv də yox, yarım gün bəs elədi.**

Sərkisyan 2 aprel 2016-cı il sınağından, "4 günlük müharibə"də yad torpağında məhv etdirdiyi erməni gənclərə görə xalqın qəzəbindən qurtula bilmişdi. Özü də yeni təxribat ssenarisini işə salmaqla, "Sosna Tser" adlı silahlı bandanı təlimatlandırıb polis alayını ələ keçirməsinə, daha sonra bu hadisənin ətrafında gedişlər etməklə. Ancaq 2 aprel 2017-ci ilin sınağından çıxa biləcəkmi, demək çətindir.

Hakimiyyəti çox döşünə döyürdü. Amma seçki başlayan kimi məlum oldu ki, kameralar işləmir, ustaya ehtiyacı var. Bir az keçdi, daha böyük biabırçılıqlar oldu. Təsəvvür edin, ölkənin prezidentinin səs verdiyi paytaxt seçki məntəqəsindəki texniki qurğu Serj Sərksiyanın biometrik pasportuna baxıb "səni tanımıram" dedi. Əslində bu fakt Serjikin hakimiyyəti üçün öldürücü idi. Guya ki, bu, "ideal", "nümunəvi" məntəqə idi, prezidentin, digər rəsmi şəxslərin səs verəcəyi ünvan kimi "xüsusi" hazırlanıbmış. Amma azı 7 cəhddən sonra aparatın "yadına düşüb" ki, Sərksiyan onun ölkəsinin prezidentidir (Bəlkə də aparat Sərksiyanın Azərbaycan vətəndaşı olduğunu "yadda saxlayıbmış").

Ölkə parlamentinin sədri Qalust Saakyan da seçki məntəqəsində çətin situasiya ilə üzləşib. Belə ki, qeydiyyat aparatı onun barmağındakı işarəni qeydə almayıb. Onu da birtəhər yola verdikdən sonra keçmiş prezident Levon Ter-Petrosyan gəlib, əllərindəki 10 barmağın onunu da tanıma aparatının "göz"ünə soxub, ancaq nə fayda?

Ölkənin ən təcrübəli siyasətçisi, aparıcı seçki bokunun lideri bu zaman əla deyib: "Bu, kənd təsərrüfatı işi deyil". Əslində bu mesaj Serj Sərkisyan hakimiyyətinə ünvanlanıb. Demək istəyib ki, Serjik, bölgəni də fəlakətə düçar etdiyin bəsdir, hakimiyyəti təhvil ver, get, qoyununu otar!

Sərkisyan isə kütləvi saxtakarlıqlar nəticəsində "ədalətli" seçki keçirib Respublikaçılar Partiyasının hakimiyyətini uzadacağını, gələn ilin aprelində prezident kürsüsündən baş nazir kürsüsünə tullanacağını, beləcə həm Qarabağdakı cinayətlərinə görə beynəlxalq məhkəmədə, həm də 2008-ci ildə Ermənistanda məhv etdirdiyi insanlara görə İrəvanda müttəhimlər kürsüsündə oturmaq təhlükəsindən xilas olacağını zənn edir.

Erməni prezident son vaxtlar çox vurnuxdu. Avropaya getdi, "sizin yanınızdayıq, Şərq Tərəfdaşlığı proqramında əməkdaşlığı davam etdirməyə, yekun sənədi imzalamağa hazırıq" dedi. Daha sonra Putin Moskvaya çağırdı, necə təpindisə, ayrı havanı çaldı. Avropada Rusiyanı Azərbaycana silah satmasına görə şantaj edən Sərksiyan Moskvada lal dinməz oldu, hətta "təhlükəsizliyinin qarantına" minnətdarlıq etdi.

Ancaq Moskva Serj Sərkisyanın satqın olmasının çox şahidi olub, keçən ilin aprelində Putini Merkelə satanda da. Odur ki, Kremlin öz sədaqətli adamı ilə bağlı proses başlatdığını İrəvanda da bilməmiş deyillər.

Yeri gəlmişkən, Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın əvvəlcə ABŞ-dakı villasında olduğu deyilsə də, seçki günü onun səsi Moskvadan gəldi. Ancaq çoxdan proseslərdən kənarda dayanan eks-prezidentin təkcə səsi yox, həm də özü İrəvana gəlməyə qərar verib. Maraqlıdır ki, ofisindən deyiblər Köçəryan İrəvana 2 aprel saat 20.30-da enəcək. Yəni səsvermə məntəqələri bağlanandan 30 dəqiqə sonra. Təsadüfdürmü? Bəlkə Robert Moskvadan aldığı təlimata uyğun olaraq seçkisonrakı prosesləri idarə etməyə, başlanacaq üsyanın başında dayanmağa gəlir?

Ermənistanı "parlamentli respublikaya" keçirdiyini bəyan edən Sərkisyan ölkədə elə bir parlament qurmaq istəyir ki, gələn il onu alqışlarla ən yüksək posta gətirsin. Müxalifət isə bu planı qətiyyətlə rədd edir. Təkcə ona görə yox ki, Sərksiyan qaldıqca erməni gənclərin Azərbaycan torpağında məhvi dayanmayacaq, ermənilər öz ölkələrində də məhv olurlar. Hər şey nəticələrin elanından sonra bəlli olacaq. Müxalifət seçkinin nəticələrini çətin ki, tanısın. Nə olsun ki, hakimiyyət ölkədə 2,5 milyon seçici olduğunu iddia edir. Erməni seçicinin bir arqumenti saxtakarlığı ifşa edir: "Belə çıxır ki, bizim ailəmiz 250 faiz artıb".

Görək erməni xalqı aparatın tanımadığı Sərkisyanın "qələbəsini" tanıyacaqmı? Yaxud elə beynəlxalq təşkilatlar... Gözləyək.

## Bizi zərrə-zərrə zəhərləyən geyimlər

### Əksəriyyəti 1-2 manata satılan paltarlar xüsusilə uşaqlar üçün təhlükəlidir

**Əhalinin yoxsulluq səviyyəsinin artması onların əksəriyyətini daha ucuz satılan və keyfiyyəti şübhə doğuran geyim və məişət əşyalarından istifadə etməyə məcbur edib. Bunların arasında ən təhlükəli olanlar isə bədən dərisi ilə birbaşa təmasda olan geyimlər və uşaqların istifadə etdikləri oyuncaq əşyalarıdır.**

Xaricdən kiloqramla alınıb çuvallarda gətirilən, paytaxtın müxtəlif bazarlarından qəpik-quruşa satılan bu cür əşyalar keyfiyyətsiz olmaqla yanaşı sağlamlığa da zərərlidir. "Yeni Müsavat"ın müxbiri bu əşyaların satıldığı "8-ci kilometr" bazarına baş çəkib.

Bazarın girişində açıq havada piştaxtaların üzərinə səliqəsiz şəkildə sərilmiş paltarların əksəriyyəti 1-2 manata satıldığından alıcıların diqqətini cəlb edir. Xarici görünüşünə görə nə qədər cəlbedici olsa da, bu paltarların təbii materiallardn hazırlanmadığı açıq-aydın hiss olunur. Görünür insanlar bu cür süni parçalardan hazırlanmış geyimlərin nə qədər ziyanlı olduğundan xəbərsizdir.

Bu yerdə qeyd edək ki, dermatoloqlar paltarların hansı materialdan hazırlanmasını insan sağlamlığı, xüsusən də dəri xəstəlikləri baxımından çox önəmli hesab edir. Belə ki, süni parçalardan hazırlanan geyimlər sağlamlığa mənfi təsir edir. İnsanın özü hərəkəti zamanı bioelektrik enerji əmələ gətirir. İnsan hərəkət edən zaman orqanizmində yaranan bioelektriklə süni parçadan olan geyimlər arasında narahat mühit yaranır. Bəzən qaranlıqda paltarları dəyişəndə onlardan işıq, qığılcım çıxır. Süni parçadan olan geyimlər geyindikdə isə damarlar boyunca qanın tərkibində hansı dəyişikliklərin baş verdiyini bilmək çox çətindir.

Mütəxəssislər onu da iddia edirlər ki, süni paltarlar sonsuzluq yarada bilər. Bu səbəblərə görə, təbii parçalardan olan geyimlərə üstünlük vermək çox önəmlidir. Bazarda olarkən söhbətləşdiyimiz alıcılardan bir çox bu geyimlərin sintetik materiallardan hazırlandığından xəbərdar olduğunu, lakin imkansızlıq səbəbindən bunları almağa məcbur olduqlarını dedilər.

Satıcılar da bildirdi ki, onlar təklif etdikləri malın keyfiyyəti barədə yalan vədlər vermirlər. Əslində elə geyimlərin üzərindəki qiymət də onların pambıq və ipək parçadan deyil, müxtəlif tullantılardan hazırlanmış süni parçadan hazırlandığını göstərir.




Bazarda 1 manata satılan şərflər, 2-3 manata satılan qadın köynəkləri, 1 manata təklif olunan uşaq geyimləri, qəpik-quruşa satılan oyuncaqlar açıq-aşkar təhlükə saçır. Əksəriyyəti isə Çin istehsalıdır.



Son dövrlər müxtəlif xəstəliklərin yayılması səbəbləri arasında geyimlərin verdiyi fəsadları da artıb. Geyimlərdə əsasən sintetik boya maddələri və toksik maddələr allergiyaya səbəb olur. Təbii parçalardan olan geyimlərin boyası çətin getdiyi halda, sintetik parçalardan hazırlanan geyimdən rəng asanlıqla çıxır. Tərlədikdə isə parçadan çıxan boya insanın dərisinə hopur. Xüsusilə də isti havalarda sintetik parçalardan geyim geyinmək təhlükəlidir"



Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, xüsusilə də uşaq geyimləri alarkən diqqətli olmaq lazımdır: "Ölkədə olan ən bahalı, brend malların satıldığı mağazalarda belə saxta, Bakıda və ya digər ölkələrdə tikilmiş süni materialdan olan geyimlərə rast gəlmək olar. Yarmarkalarda köşklərə baxsaq, orada kostyumların tikildiyini, üzərinə yalandan etiketlərin yapışdırılmasını görmək olar. Azərbaycanda olan ayaqqabıların təxminən 40 faizi müxtəlif brendlərin adı altında ölkədə istehsal olunur. Daha ucuz və əhalinin kütləvi axın etdiyi bazarlarda isə süni materiallardan hazırlanmış geyimlər satılır. Bunlar dəri ilə birbaşa təmasda olduqda, insan səhhəti üçün təhlükəlidir. Xüsusən rəngi çıxan paltarları geyinmək qətiyyən doğru deyil. İstehlakçılara tövsiyəm odur ki, üst paltarı olaraq sintetik materialdan tikilmiş geyimlərə üstünlük versələr də, alt paltarlarını, yəni dəri ilə birbaşa təmasda olan geyimləri pambıq materialdan seçsinlər. Uşaq geyimləri ilə bağlı isə daha həssas olmaq lazımdır. Bu sahədə həm istehlakçıların maarifləndirilməsinə, həm də biznes etikasının dəyişməsinə ehtiyac var. Bəzən süni parçadan hazırlanan malların üzərinə pambıq yazılır. Həssas insanlarda neft məhsullarından hazırlanan geyimlər allergiyaya səbəb ola bilər, dəri xəstəlikləri yaradar. Süni corablar geyinən həssas adamlarda təhlükəli allergik xəstəliklər yarana bilər".

❑ Nərgiz LİFTİYEVA
❑ Fotolar müəllifindir

## Türkiyə ilə Naxçıvanı dəmir yolu da birləşdirəcək



**Naxçıvanla Türkiyəni birləşdirəcək dəmir yolunun layihəsi hazırlanıb. APA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, bunu Türkiyənin nəqliyyat, dənizçilik və rabitə naziri Əhməd Arslan İğdıra səfəri zamanı bildirib.**

Ə. Arslan deyib ki, Qars-İğdır, Dilucu-Naxçıvan dəmir yolu layihələrinin hazırlanması başa çatıb: "Avropadan gələn bir qatarın Qarsdan İğdıra, İğdırdan Naxçıvana, Naxçıvandan Orta Asiyaya getməsi nəzərdə tutulur. Bu dəmir yolu Türkiyəni, Naxçıvanı, Azərbaycanı daha da gücləndirəcək, ticarətin artmasına səbəb olacaq. Rəhmətlik Heydər Əliyev "bir millət, iki dövlət" olduğumuzu bildirib. Ona görə də Qars-İğdır, Dilucu-Naxçıvan dəmir yoluna çox böyük əhəmiyyət veririk. Layihənin hazırlanması başa çatıb, növbədə layihənin icra edilməsidir. Bu məsələ ilə bağlı Azərbaycanla müzakirələr aparırıq".

# Müxalifətə ayrılan möhlət bitdi

## MSK siyahı açıqladı; maliyyə hesabatı verməyən partiyaları nə gözləyir?..

**Azərbaycanda siyasi partiyaların Mərkəzi Seçki Komissiyasına (MSK) 2016-cı il üzrə maliyyə hesabatını təqdimetmə müddəti aprelin 1-də başa çatıb. MSK-nın yaydığı xəbərə görə, dövlət qeydiyyatına alınan 55 siyasi partiyadan MSK-ya 22-si maliyyə hesabatı təqdim edib.**




MSK həmin partiyaların adlarını açıqlayıb.

Bunlar hakim Yeni Azərbaycan Partiyası, Azərbaycan Mübarizləri Partiyası, Azərbaycan Liberal Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Vahid Azərbaycan Milli Birlik Partiyası, Azərbaycan Sosial Rifah Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası, Milli Vəhdət Partiyası, Azərbaycan Kommunist Partiyası, Böyük Quruluş Partiyası, Müsavat Partiyası, Azərbaycan Milli Demokrat Partiyası, Müasir Müsavat Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Ana Vətən Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Vəhdət Partiyası, Azərbaycan Təkamül Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Birlik Partiyası, Azərbaycan Xalq Demokratik Partiyası və Azərbaycan Respublikaçılar Partiyasıdır.

Artıq üç ildir ki, qanunvericiliyə əsasən, siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq MSK-ya təqdim etməlidirlər. Mərkəzi Seçki Komissiyası bu müddətdə illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə təqdim etməyən siyasi partiyalar barədə Ədliyyə Nazirliyinə məlumat verməlidir. Siyasi partiyalar üç ildir maliyyə hesabatını MSK-ya təqdim edirlər. Əvvəlki illərdə partiyaların bəziləri maliyyə hesabatını təqdim etməsələr də, MSK indiyədək Ədliyyə Nazirliyinə müraciət etməyib. MSK-nın bu dəfə necə davranacağı isə hələ məlum deyil.

YAP-çı deputat Siyavuş Novruzov bir müddət əvvəl Milli Məclisdə çıxışında "Siyasi partiyalar haqqında" Qanuna dəyişiklik edilməsi təklifini vermişdi. O təklifini belə əsaslandırmışdı ki, siyasi partiyaların MSK-ya hesabat verməsini nəzərdə tutan qanun qəbul edilsə də, buna əməl olunmur: "Ona görə də əgər kimsə öz gəlirləri barədə hesabat vermirsə, onunla bağlı tədbir görülməlidir. Baxmayaraq ki, bir sıra partiyaların kifayət qədər cangüdənləri, avtomobilləri var, təbii ki, bunlar hava ilə dolanmırlar. "Siyasi partiyalar haqqında" Qanuna dəyişiklik edildi ki, siyasi partiyalar maliyyə hesabatını Mərkəzi Seçki Komissiyasına təqdim etsinlər. Lakin bir sıra siyasi partiyalar Mərkəzi Seçki Komissiyasına hesabat vermirlər. Həmin partiyaların kifayət qədər cangüdənləri, işçiləri var, ancaq hesabat vermirlər. Qanunvericilikdə elə normalar tətbiq etməliyik ki, bunun qarşısını alaq".

Qeyd edək ki, ölkədə dövlət qeydiyyatından keçən 55 partiyadan 11-i parlamentdə təmsil olunur və dövlət büdcəsindən maliyyələşir. Qalanlarından təxminən 15-ə yaxının müəyyən fəaliyyəti hiss olunur. Təxminən yarısının isə heç bir fəaliyyəti yoxdur. Qanunda iki il fəaliyyəti olmayan partiyanın qeydiyyatının ləğvi tələbi də əksini tapır.

MSK-nın açıqladığı maliyyə hesabatı verən partiyaların sırasında adı olmayan partiyalar sırasında məşhur nüfuzlu təşkilatların da adına rast gəlinmir. Məsələn, ADP-nin, KXCP-nin, AMİP-in, VİP-in adı siyahıda deyil.

ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, dövlət büdcəsindən maliyyələşməyən partiyadan maliyyə hesabatının tələb olunması məntiqsiz və gülüncdür: "Bizim partiyaya dövlət büdcəsindən bir manat da olsun vəsait daxil olmur. Partiya ona verilməyən, olmayan vəsaitin hesabatını verməlidir?! Nə sürücüm, nə mühafizəçim var, nə də partiyamızda maaşla işləyən işçilər var. Partiyamızın rəhbər orqanında təxminən 15 nəfərə yaxın adam var ki, onlar da ictimai əsaslarla fəaliyyət göstərirlər. MSK-nın partiyalardan illik maliyyə hesabatı tələb etməsi isə qanunlara, Konstitusiyaya ziddir. Yalnız xüsusi hallarda Maliyyə Nazirliyi partiyanın maliyyələşdirilməsi ilə bağlı hesabatını tələb edə bilər. Digər tərəfdən isə dövlət büdcəsindən maliyyələşdirilməyən partiyalardan hansı məntiqlə və haqla maliyyə hesabatı tələb edilir?! Adama deyərlər ki, sən mənə maliyyə verirsən ki, hesabatını da tələb edəsən. Gündə qanuna kefləri istədiyi bir dəyişiklik edəcəklər müxalifət partiyaları da onların dediyi ilə oturub-duracaq?! Lap tutaq ki, maliyyə hesabatını bəhanə edib partiyaların fəaliyyətini qadağan elədilər, guya bundan sonra Azərbaycanda müxalifət olmayacaq!? Qadağan edəndə aşkar fəaliyyət gizli fəaliyyətə keçə bilər ki, bu daha pis olar. Partiyaların qapadılması ölkədə yaranmış vəziyyətdən çıxış yolu deyil".

VİP sədri Əli Əliyev isə bildirdi ki, hesabatı martın 29-da MSK-ya təqdim ediblər. Ola bilsin ki, texniki xəta üzündən VİP-in adı siyahıda deyil: "İstisna deyil ki, MSK-nın siyahısının davamı gəlsin. Çünki bu ilki qədər MSK ciddi informativ iş görmürdü. Ola da bilər ki, siyasi mübarizədə bu müddəanı dəstəvuz etsinlər və kimlərəsə təzyiq göstərilsin. Onsuz da Azərbaycanda aparılan siyasət nəticəsində nəzarətdə olmayan qurumların sıradan çıxarılma taktikası mövcuddur. Bu da yeni birisi olsun. Düşünürəm ki, onsuz da aparılan işlər instusional olaraq siyasi rəqiblərə qarşı yönəlib. Ölkə azadlıqlar ölkəsi deyil, qadağalar məkanına çevrilir. Özü də bu qadağalar daha çox siyasi opponentlərə qarşı tətbiq edilir. Bizim adımızın həmin siyahıda olmaması ilə bağlı isə əlavə maraqlanacağıq".

AMİP katibi Elşən Mustafayev isə dedi ki, Azərbaycan Milli İstiqlal Partiyası 2016-cı il üçün maliyyə hesabatını audit rəyi də daxil olmaqla hər il olduğu kimi tam tələb olunan qaydada MSK-ya təqdim edib: "Ümid edirik MSK saytında hesabat verən patiyaların siyahısında bizim adımızın olmaması texniki səhvdir. Buna baxmayaraq həftənin əvvəlində MSK ilə əlaqə saxlayıb bu məsələni bir daha aydınlaşdıracağıq. Düşünürəm ki, heç bir problem yoxdur - baxmayaraq ki, AMİP dövlətdən maliyyələşmir, qanunun tələbini yerinə yetirərək addım atmışıq".

❑ **E.SEYİDAĞA**

# Cinayəti bilib gizlədənlərə qarşı cəza sərtləşir, cinayət azalacaqmı?

## **Fazil Mustafa:** "Peşəkarlığa diqqətin ayrılması daha vacibdir"

## **Əsabəli Mustafayev:** "Cərimələrdən ən çox istifadə olunacağı gözlənilləndir"

**Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə ilə əlaqədar tətbiq edilən cərimələrin miqdarı artırılır. Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində müzakirə edilərək Milli Məclisə tövsiyə olunan Cinayət Məcəlləsinə dəyişikliklərlə bağlı qanun layihəsində əksini tapıb.**

Cinayət Məcəlləsinə əsasən ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə 500 manatdan 1000 manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Layihədə bu halda 1500 manatdan 2500 manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırma təklif edilir.

Qüvvədə olan qanuna əsasən qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə 2 min manatdan 5 min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Layihədə bu halda 3 min manatdan 6 min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırma nəzərdə tutulur. Cinayət hallarının qarşısını almaq, bəzi cinayətlərin üzə çıxarılmasına olan





maneələri aradan qaldırmaq üçün qanun layihəsinin hazırlandığı deyilir. Bəs, yeni cəzalar cinayətlərin azalmasına gətirəcəkmi?

Deputat, hüquqşünas Fazil Mustafa hesab edir ki, burada söhbət bir çox cinayətlərin gizlədilməsi və müəyyən şəxslərin cinayətlərdə rol almalarına baxmayaraq, məsuliyyətdən kənarda qalmalarından gedir: "Bu halların qarşısını almaq üçün qanunlar sərtləşdirilir. Hesab edirəm ki, cinayətlərin açılmasında daha çox peşəkarlıq nöqteyi-nəzərindən əsas fəaliyyətlərə diqqət yetirilməsi vacibdir. Çünki bir çox hallarda peşəkarlığın yetərincə olmaması cinayətlərin vaxtında üstünün açılmasına mane olur. Hər halda qanunların bu şəkildə sərtləşdirilməsi cinayəti bilib gizlədənlərin məlumat vermələri ilə nəticələnməyəcək. Çünki burada söhbət müəyyən maraqlardan, hədə-qorxulardan gedir. Bundan əvvəl diqqət yetirsəniz görərsiniz ki, cinayəti bilən insanların həyatlarını itirmələri kimi hallar az deyil. Bu baxımdan bu məsələdə cəzaları sərtləşdirmədən daha çox peşəkarlığa diqqətin ayrılması daha çox vacibdir. Görünür statistikada daha çox cinayətlərin ortaya çıxmaması göründüyünə görə, belə bir yol seçilir. Ola bilsin ki, bunun haqlı tərəfləri də var".

Tanınmış vəkil Əsabəli Mustafayev bildirdi ki, bu qərar kriminal məsələlərdə yeni tendensiyadır: "Bundan sonra düşünürəm ki, azadlıqdan məhrumetmədən daha çox cərimələr tətbiq olunmağa başlayacaq. Çünki bilirsiniz ki, ölkə başçısının cəzaların yumşaldılması barədə fərmanı var. Mənə elə gəlir ki, yeni layihələr həmin fərmana uyğun nəzərdə tutulacaq. Bütün bunlar dünyada tətbiq olunan metodlardır. Azərbaycan həbsxanada olan məhbusların sayına görə Avropanın qabaqcıl ölkələrindən biridir. Ola bilər ki, bu amilləri nəzərə alan hökumət həbsxanalarda məhbusların sayının azaldılması yolunu tutub. Ona görə cərimələr daha çox artırılır ki, bundan sonra bu metoddan istifadə edilsin. Bu layihələr ona yönəldilib. Doğrudur, azadlıqdan məhrumetmə cəzasının tətbiqi də nəzərdə tutulur, amma bu o qədər də böyük önəm daşımır. Bundan sonra cəza metodunda cərimələrdən daha çox istifadə olunacağı gözlənilləndir".

❑ **Cavanşir ABBASLI**




# Nazarbayevin Bakı səfərindən əsas gözlənti

## Qabil Hüseynli: "Azərbaycan daim Qazaxıstanın dəstəyini öz üzərində hiss edib..."

**Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gəlib. İki gün çəkəcək səfər zamanı iki ölkə arasında dövlətlərarası əməkdaşlığa dair dörd sənədin imzalanması nəzərdə tutulur.**

Qazaxıstan liderinin Azərbaycan prezidenti İlham Əliyevlə danışıqlarda təhlükəsizlik, iqtisadiyyat, tranzit və regional siyasət sferalarında ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edəcəyi gözlənilirdi. Ekspertlər həmçinin istisna etmirlər ki, rəsmi Bakı Qazaxıstandan, BMT TŞ-nin qeyri-daimi üzvü kimi Dağlıq Qarabağ məsələsində dəstək gözləyir.

Əslində Nazarbayevin Bakı səfəri ötən il oktyabrın 12-də reallaşmalı idi. Lakin o zaman Qazaxıstan prezidentinin səhhətində problem yarandığından onun Azərbaycana ziyarəti mümkün olmamışdı. Ekspertlər Azərbaycan-Qazaxıstan əlaqələrinin yaxın olmasını qeyd edərək, Nazarbayevin Bakı səfərinin əhəmiyyətinin yüksək olacağından söz açırlar. Xüsusilə, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində bu səfərin mühüm rol oynayacağı dilə gətirilir.

Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli Nazarbayevin Azərbaycanı sevən bir şəxs olduğunu söylədi: "Qazaxıstan türkdilli ölkələr sırasında bəlkə də yeganə respublikadır ki, müstəqillik qazandıqdan sonra Azərbaycanla sıx münasibətlər yaradıb. Demək olar ki, bütün məsələlərdə ölkəmizlə eyni platformadan çıxış edirlər. Bu yaxın münasibətlərin bünövrəsi mərhum prezident Heydər Əliyevlə Nazarbayev tərəfindən qoyulub. Şahidi olduğum bir məqamı qeyd edim. Bir dəfə Heydər Əliyev Çindən səfərdən qayıdanda Nazarbayev ona zəng edərək, bir neçə saatlıq olsa da, Almatada onun qonağı olmasını xahiş etdi. Görüş zamanı Nazarbayevin Heydər Əliyevə necə böyük ehtiramla, ağsaqqal kimi yanaşmasının şahidi oldum. Həmin vaxt Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktından danışması məni xeyli dərəcədə təəccübləndirdi. Çünki o zaman yeni müstəqillik qazanmış dövlətlərin hər birinin öz qayğıları var idi. Amma bütün bunlara baxmayaraq, bu şəxsdə türkçülük şüurunun necə olduğunu, Azərbaycana qardaş və müttəfiq bir ölkə kimi baxdığının şahidi oldum. O, çox böyük siyasətçidir. Rusiyanın müəyyən dairələrinin Qazaxıstana ərazi iddialarının olmasına baxmayaraq, o ölkəsinin ərazilərini qorumağı bacardı və Rusiya ilə yüksək münasibətləri qoruya bildi. Bu gün də Putinin ən yaxın münasibəti olduğu birincilər sırasında dayanır. Azərbaycan daim Qazaxıstanın dəstəyini üzərində hiss edib. Bütün beynəlxalq görüşlərdə Nazarbayev rəsmi Bakı ilə eyni mövqedən çıxış edib. Müxtəlif məsələlərdə ortaq mövqe tutub. Ümumtürk bazarının yaranması ideyasını da müdafiə edib. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması ilə bağlı qətiyyətli mövqe tutanlardan biri də Nazarbayevdir. Qırğızıstan prezidentindən fərqli olaraq, o hər zaman cəsarətlə bizi müdafiə edib. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibliyinə erməninin seçilməsinin əleyhinə çıxış edənlərdən biri Belarus rəhbəri, biri isə Nazarbayev oldu. Nazarbayev baş katibin erməni generalı olacağı təqdirdə Azərbaycan-Ermənistan münasibətlərinin daha da kəskinləşəcəyini nəzərə alaraq, bu addımı atdı. O, bir çox iqtisadi məsələlərdə ölkəmizlə əməkdaşlığa önəm verir. İstədiyimiz qədər Qazaxıstandan taxıl ala bilirik. Bu da bizim iqtisadiyyatımıza ciddi töhfələr verir".

Politoloq səfər zamanı ediləcək müzakirələrə də toxundu: "Bu səfər zamanı mühüm görüşlər olacaq. Görüşlərdə qarşılıqlı münasibətlərin daha da intensiv şəkildə davam etdirilməsi ilə bağlı müzakirələr gedəcək. Gələcəkdə müxtəlif sahələrdə əlaqələrin daha da genişləndirilməsi xüsusi müzakirə olunacaq, xüsusilə, qeyri-neft sektorunun inkişafı ilə bağlı fikir mübadiləsinin aparılacağı şübhəsizdir. İstənilən halda Nazarbayev etibarlı şəxsdir. Azərbaycan hər zaman Qazaxıstan kimi dövlətin dəstəyini arxasında hiss edib bilər".

❑ Cavanşir ABBASLI

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, analitik Elxan Şahinoğlu ötən ilin bu günlərində şəhid olan Azərbaycan əsgərləri ilə bağlı kitab yazıb. "Aprel atəş(kəs)i" adlanan kitabda ordumuzun şücaətindən, 4 günlük savaşdan sonra Azərbaycan tərəfin Ermənistan üzərində qazandığı əzici üstünlükdən, eləcə də, Rusiyanın düşmən ölkəyə verdiyi dəstəkdən söz açılır.**



# Tanınmış politoloq aprel şəhidlərinə kitab yazdı

## Elxan Şahinoğlu: "Kitab yazmağım daha çox o zərurətdən doğdu ki..."




**"Rusiya Qarabağ münaqişəsinin ədalətli həllində heç zaman maraqlı olmayacaq"**

Kitabın aprelin 3-də saat 12:00-da sputnik.az saytının ofisində təqdimatı baş tutacaq. Təqdimatdan bir gün öncə "Yeni Müsavat"ın redaksiyasında olan müəllif əməkdaşlara kitabını hədiyyə edib və kitabla bağlı qəzetə müsahibə verib.

E.Şahinoğlu son kitabının Dağlıq Qarabağa həsr etdiyi ikinci kitab olduğunu bildirdi: "Birinci kitabı 2010-cu ildə yazmışdım. Dağlıq Qarabağın statusu ilə bağlı idi. Dünyada mövcud olan statusları araşdırıb, nümunə kimi göstərmişdim. Tələbəlik illərindən başlayaraq, Dağlıq Qarabağ ətrafında gedən proseslərlə maraqlanıram. Hər bir prosesi diqqətlə izləyirdim. Jurnalistika fəaliyyətimə başlayandan sonra isə, bu mövzu əsas işimə çevrildi. 2005-ci ildə mərkəzimizi təsis edəndən sonra bu mövzu mərkəzimizin başlıca mövzusuna çevrildi. Həftədə iki dəfə bülleten buraxırıq və onun biri mütləq bu mövzu ilə bağlı olur.

Ötən il məlum hadisələr baş verəndə mənim üçün gözlənilməz olmadı. Ölkə başçısı keçən ilin aprelində kəskin çıxış da etmişdi. Toqquşmalar oldu və bu prosesi, ondan sonra cərəyan edən hadisələri diqqətlə izlədim. Əlimdəki materiallardan çıxış edərək, belə qərara gəldim ki, bunu kitab halına gətirim. Bu kitabı daha çox analitik yüklü etdim. Əslində ötən ilin sonlarında kitabı yekunlaşdırmaq istəyirdim, amma hadisələr bu ilin əvvəllərində elə sürətlə cərəyan etdi ki, ilk iki ayı izləyib kitaba əlavə etdim. Çox təəssüflər olsun ki, cəbhə bölgəsində deyilik. Orada qardaşlarımız Vətən uğrunda savaşırlar, həlak olurlar. Özümə borc bildim ki, bu kitabla onlara dəstəyimi ifadə edib. Bunun üçün onların əziz xatirələrinə bu kitabı həsr etdim. Kitabda əsasən aprelə aparan durumu təhlil etmişəm.

Açığı, daim bir fikri bildirmişəm ki, 1994-cü ildə "Bişkek" protokolu imzalananda üzərimizə xüsusi öhdəlik götürməmişik ki, ömrümüzün axırına qədər atəşkəsə əməl edəcəyik. Bunun üçün daim işğalçıya təzyiq etməliyik. Apreldə işğalçıya zərbə vurduq, bu, ciddi hadisə idi. Məncə, əvvəlcədən planlaşdırılmışdı. Əsas olan odur ki, hücum etdik, gücümüzü göstərdik. O zaman cəmiyyətin gözləntisi var idi ki, 5 rayon azad olunacaq, hətta Rusiya belə işğalçıya təzyiq edəcək. Amma bunlar olmadı. Lakin aprel döyüşlərinin Azərbaycan üçün müsbət tərəfləri kifayət qədər çox oldu. Biz illərdir özümüzü məğlub durumda görürdük, bu döyüşlə bunlar aradan qalxdı. Eyni zamanda, xalq arasında ruh yüksəkliyi yarandı. Həmin vaxt bütün binalarda bayrağımız dalğalanır, şəhidlərimizin dəfnində izdiham yaşanırdı. Ermənistan cəmiyyəti daxilində də təlatümlər yarandı ki, bu gün də davam edir.

Bütün bu və ya digər hadisələr kitabda öz əksini tapıb. Kitabda ötən ilin aprelində Rusiyanın rolunu da geniş tədqiq etmişəm. Həmin vaxt Rusiya düşmən ölkəyə 200 milyon dollar verdi ki, silah alsınlar. Belə nümunə heç yerdə yoxdur. Pulu verirlər ki, maliyyə vəziyyətinə sərf olunsun. Digər tərəfdən, Rusiya ermənilərə "İsgəndər" raketləri verdi. Biz bu raketləri Rusiyadan pulla alırıq, amma Kreml pulsuz ermənilərə verir. Atəşkəs pozulandan sonra Rusiya Azərbaycanın ATƏT-dəki səfirinə nota verir, amma Ermənistan təmsilçisinə vermədi. Bu, o demək idi ki, bizi günahkar görürlər. Bütün bunları kitabımda geniş şərh etmişəm. Açıq şəkildə göstərmişəm ki, rəsmi Moskva Qarabağ münaqişəsinin ədalətli həllində heç zaman maraqlı olmayacaq. Kitabda gəlinən əsas nəticələrdən biri də budur".

Politoloq kitabın təqdimatı və tirajı ilə bağlı da danışdı: "Kitabı öz imkanlarım hesabına ərsəyə gətirmişəm. Nəşriyyatda qiymətlər kifayət qədər qalxıb. Bu baxımdan tirajı çox edə bilmədim. Min tirajla kitabı çap etməyi bacardım. Amma bu minimum sayda çap etdirdiyim kitabı yaxın ətrafa, həmkarlara paylamaq istəyirəm. Aprelin 3-də təqdimat olacaq, sizlər də dəvətlisiniz. Bu kitabda informativ və analitik yük çoxdur. Ali məktəblərdə oxuyan, bu mövzuda yazılar yazan və jurnalistikaya yeni qədəm qoyanlar düşünürəm ki, bu kitabdan bəhrələnə bilərlər. Dostlarım deyir ki, bu kitabı ingilis və rus dillərinə tərcümə etmək də maraqlı olardı. Bunu mən də istəyirəm, amma bir qədər maliyyə xərcləri tələb edir. Əgər kitaba tələbat daha çox olarsa, oxucuların diqqətini cəlb edərsə, yenidən çap etməyə hazıram. Bunu təmənnasız özümə borc bilirəm. Heç kimdən də dəstək gözləmirəm. Allaha şükür, başqa gəlir imkanlarımız var. Bu işi davam etdirməliyəm".

Müsahibimiz aidiyyəti qurumlardan dəstək almamasından gileyləndi: "Çox təəssüflər olsun ki, bizim mərkəz qeydiyyatdan keçməyib. Heç vaxt heç yerdən qrant almamışam. Vaxtı ilə Azərbaycanda Amerika və Avropanın fondları var idi. Amma heç birindən qrant almamışam. İndinin özündə də belədir. 2005-ci ildə mərkəzimizi yaradanda bizi qeydə almadılar. 3 dəfə sənədləri Ədliyyə Nazirliyinə verdik, hər birində də müxtəlif bəhanələrlə geri qaytardılar. Sonuncu dəfə isə, ümumiyyətlə, sənədləri geri qaytarmadılar. Ola bilər ki, hökumətin hansısa siyasətini tənqid edə bilərəm, müxalif fikir səsləndirərəm, amma dövlətə müxalif deyiləm ki. Bülleten buraxırıq, müəyyən qədər oradan gəlirimiz var. Bundan sonra da maliyyə dəstəyi ilə bağlı heç kimə müraciət etmək fikrim yoxdur".

Sonda E.Şahinoğlu aprel hadisələrinə yazarlar səviyyəsində kitabların həsr edilməməsindən də söz açdı: "Bu, çox aktual məsələdir. Əslində bu kitabı yazmağım daha çox o zərurətdən doğdu. Bu hadisəni tarixə qovuşdurmaq borcumuzdur. Rəhmətlik Zəfər Quliyev, Həsən Quliyevlə yaxın əlaqələrim var idi. Onların maraqlı bir sözü var idi. Deyirdilər ki, söz uçur, o sözü haradasa əks etdirmək lazımdır. Əks etdirmək isə ya qəzetdə, ya da kitabda ola bilər. Ötən ilin aprelində uzun illərdən sonra hərbi toqquşma baş verdi və biz müəyyən uğurlar əldə etdik. Bunları haradasa əks etdirmək vacibdir. Kitabın adını ona görə, "Aprel atəş(kəs)i" qoydum ki, aprel adı üzdə olsun. Bu ay tariximizə qızıl hərflərlə düşüb. Gələcək baxımından hər kəsin bilməsinə ehtiyac var ki, apreldə nələr baş verib, kim özünü necə aparıb, dünya ölkələri nə edib. Qəzet saxlamayanda itib batır, amma kitab belə deyil".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 67 (6681) 3 aprel 2017

# "Torpaqlarımızın azadlığı uğrunda hərəkətə keçməliyik"

## "Hərbi əməliyyat keçirib 2-3 rayonu azad etsək, ermənilərin danışıq tonu tam dəyişər"

**"Baxış bucağı"**

**Adətən, aprel ayında sabiq daxili işlər naziri, istiqlalçı deputat İsgəndər Həmidovla söhbətlərimiz olub. Bu ay bir tərəfdən Kəlbəcərin işğalına görə İsgəndər bəylə söhbəti zəruri edibsə, digər tərəfdən doğum günü (10 aprel 1948-ci il) aprelə təsadüf etdiyindən onu həmsöhbət olaraq seçmişik. Ənənəmizə sadiq qalaraq yenə də onu aradıq. Ancaq ömür-gün yoldaşı dəyərli Rəna xanımın dünyasını dəyişməsi səbəbindən İsgəndər Həmidovla ad günü söhbətinə yer olmadığını bildiyimizdən bu mövzudan yan keçdik. "Mənimçün çox çətindir" deyən İsgəndər bəy əlavə etdi ki, doğum günündə Rəna xanımın məzarı başında onunla baş-başa qalmaq, dərdləşmək niyyətindədir... Beləliklə, Allahdan İsgəndər bəyə səbr, ömür yoldaşına rəhmət arzulayıb Vətən, torpaq mövzusundan danışdıq.**



***- İsgəndər bəy, bilirəm ki, Kəlbəcərdən danışmaq sizə çox çətindir. Özünüz də yəqin diqqət edirsiniz, düşmən ölkə heç cür geri çəkilmək niyyətində deyil, "qan-qan" deyir. Siz vəziyyətlə bağlı nə düşünürsünüz, Kəlbəcərin xilas yolu nədir?***

- 1993-cü ildəki itkilərimizin içində ən ağrılısı Kəlbəcərdir. Görün neçə illər keçib, ermənilər artıq Kəlbəcərdə abadlıq işləri aparır, sanatoriyaları işə salıblar, arıçılığı, maldarlığı inkişaf etdirirlər. Üstəlik, ermənilər orda ölən hərbçiləri üçün xiyaban salıblar, hətta 3-4 "milli qəhrəmanları"nı orda dəfn ediblər. Bu, onu göstərir ki, ermənilər Kəlbəcəri danışıqlarla qaytarası deyillər, yeganə yol hərb yoludur. Kəlbəcər, Qarabağ tək kəlbəcərlilərin dərdi deyil, bütün Azərbaycanın dərdidir. Biz özümüzdə təpər tapmalıyıq. Hakimiyyət özündə cəsarət tapıb hərbi yolla işğal altındakı torpaqlarımızı azad etməlidir. Toparlanaq, bir gün bir rayonu da azad edib sevinc tədbiri keçirək! Allah bizə təpər, cəsarət, niyyət versin ki, torpaqlarımızı azad edək!

***- Əslində burada fərqli münasibət yoxdur. Ölkə başçısı da aprel müharibəsi ilə əlaqədar hərbçilərlə keçirdiyi görüşdə torpaqların azadlığının alternativinin olmadığını bir daha ifadə etdi. Deməli, Qarabağ məsələsində iqtidar-müxalifət münasibəti eynidir, razılaşırsınızmı?***

- Dövlət başçısı ilə bizim aramızda fərq ondan ibarətdir ki, biz deyirik, amma dövlət başçısı bunu etməlidir. Mən müxalifət düşərgəsi ilə söhbətdən belə başa düşmüşəm ki, hamı deyir siyasi ambisiyaları bir kənara qoyuruq, siyasi fəaliyyəti dayandırırıq, ağlı olan ağlı, qələmə olan qələmi, əli silah tutan silahı ilə döyüşlərdə iştirak etməyə, kömək etməyə hazırdır. Yetər ki, dövlət başçısı qərarını versin. Sözsüz ki, dövlət başçısının aprel döyüşlərinin iştirakçıları ilə görüşü təqdirəlayiqdir. Mən istərdim ki, tək aprel döyüşlərinin iştirakçıları ilə yox, bütün Qarabağ qaziləri ilə tez-tez görüşsün, onlara verilən yüksək dəyər gənc nəslin də vətənpərvər yetişməsində mühüm rol oynayacaq. Necə ki, rəhmətlik Mübariz İbrahimovun şücaəti böyük bir nümunədir, məktəbdir. Mən də belə addımları alqışlayıram. Ancaq bizim iqtidar generalitetə də ciddi diqqət yetirməlidir, zəif yerləri də müəyyənləşdirib tədbirlər görməlidir. Xüsusilə də aprel döyüşlərindən sonra bu sahəyə daha çox diqqət yetirilməlidir. Aprel döyüşləri Azərbaycan əsgərinin qəhrəmanlığını ortaya qoydu. Amma çatışmazlıqlar da aradan qaldırılmalıdır ki, növbəti döyüşlərdə daha böyük qələbələr əldə etməyimizə maneələr olmasın. Mənə elə gəlir ki, bu dəqiqə ordumuzun vəziyyəti çox-çox yaxşıdır. Zakir Həsənovun təyinatından sonra yeməkdən, təmizlikdən tutmuş hərbi təlimlərə, döyüş qabiliyyətinə qədər hər şey yüksək səviyyədədir. Orduda ciddi inkişaf var. Ancaq şəhidi dəfn edəndən, onun 40-nı verəndən sonra şəhid ailəsini unutmaq olmaz. Dövlət başçısının bu işləri tapşırdığı adamlar bilməlidir ki, şəhid ailələrini unutmaq olmaz!

***- Sadəcə, başımızın üstündə asılmış "Domokl qılıncı" var-ermənilərin himayəçiləri. Yəqin siz də bu amili nəzərə alırsınız. Kəlbəcərin işğalında da Rusiya amili həlledici olub. Elə aprel döyüşlərini də Moskva dayandırdı. Bu mənada torpaqlarımızın azad olunması prosesində şimal qonşumuzdan Azərbaycana hansısa zərbə dəyə bilərmi? Ən azı son illərin Gürcüstan və Ukrayna nümunələri var...***

- Ermənilər sözsüz ki, Rusiyanın himayəsi altındadır. Cənubi Qafqazda ermənilər həmişə Rusiyanın yaxın müttəfiqi olublar. Həmçinin onlardan Türkiyəyə, NATO-ya qarşı istifadə olunması faktdır. Aprel döyüşlərindən sonra hamı Putinin, Lavrovun gəlişindən danışdı. Amma müdafiə naziri Şoyqunun gəlişi arxa plana keçdi. Hansı ki, ilk öncə o, bura gəldi. Hamı bilir ki, Ermənistanı qudurdub Azərbaycanın üstünə salan Rusiya imperiyasıdır. Rusiyanın prosesdə oynadığı rol birmənalıdır. Ancaq biz BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini əlimizdə bayraq tutmalıyıq. Söhbət Dağlıq Qarabağın yox, Qarabağ ərazisindən gedir. Dağlıq Qarabağ ətrafındakı 7 rayonumuz işğal altındadır. 3-4 rayonu azad etsək vəziyyət dəyişəcək. Mən də başa düşürəm ki, axıra qədər hərbi əməliyyatların keçirilməsinə imkan verməyəcəklər. Heç olmasa, 2-3 rayonun azad olunmasından sonra ermənilərin danışıq predmeti dəyişəcək. Görürsünüz, indi ermənilər heç danışığa da gəlmək istəmirlər.

***- Elə bu günlərdə Ermənistan XİN "aprel müharibəsi göstərdi ki, Dağlıq Qarabağ heç vaxt Azərbaycanın tərkibində olmayacaq" iddiası ilə çıxış etdi. Bundan sonra danışıqlara da yer qalmır, elə deyilmi?***

- Tamamilə doğrudur. Ermənilər artıq danışığa gəlmək istəmirlər. Amma biz hərbi əməliyyat keçirib 2-3 rayonu azad etsək, ermənilərin danışıq tonu tam dəyişər. Ona görə də hər bir şeyi kənara qoyub, özümüzdə cəsarət tapıb bu qərarı verməliyik. Hamımız başa düşürük ki, müharibə qan-qadadır, övladın atasını, ata-ananın övladını itirməsi, ailənin başsız qalmasıdır. Amma bütün bu hissələri içimizdə boğub addım atmalıyıq.

***- Aprel müharibəsinin təkrarlanacağı barədə ehtimallar çox səslənir. Üstəlik də düşmən ölkədə seçki gərginliyinin yaşanması şəraitində Azərbaycanın əlinə fürsət düşdüyünü deyənlər var. Siz də o qənaətdəsinizmi ki, Ermənistan 90-cı illərin Azərbaycanını xatırladır?***

- Bəli, bu dəqiqə ermənilərin başı özlərinə qarışıb. Tamamilə doğrudur, 90-cı illərdə ermənilər bizim ölkənin daxilində baş verənlərdən istifadə etdilər. Özü də Ermənistan hakimiyyətində Dağlıq Qarabağ erməniləridir. Onların hakimiyyətdən getməsi üçün böyük təpki var. Qarabağ klanının da istinad etdiyi, söykəndiyi qüvvələr Dağlıq Qarabağda yerləşdirilən qüvvələrdir. Biz də bu fürsətdən istifadə etməliyik.

***- Ermənistanda hansı qüvvənin hakimiyyətə gəlişi Azərbaycan üçün faydalıdır? Məsələn, Ter-Petrosyanın hakimiyyətə yenidən qayıdışı nə vəd edir?***

- Ermənistanda hansı qüvvənin hakimiyyətə gəlməsindən asılı olmayaraq, onların milli məsələlərlə bağlı fikirləri birdir. Ter-Petrosyan sülhdən danışır, amma Xocalı, Şuşa, Laçın, digər ərazilər onun vaxtında işğal olunmadımı? Onlar həmişə riyakar olublar, bu cür mövqelər riyakarlıqdan irəli gəlir. Qərbin dəstəyini almaqdan ötrü sülhdən danışır. Amma real addıma gələndə Dağlıq Qarabağda onların mövqeyi dəyişməyəcək, hamısının mövqeyi eyni olacaq. Ona görə də Ermənistanda hansı qüvvənin hakimiyyətə gəlməsindən asılı olmayaraq, biz özümüz torpaqlarımızın azadlığı uğrunda hərəkətə keçməliyik. Kanadada, Alyaskada, Livanda yaşayan erməninin Qarabağla bağlı fikri birdir. Onlar Dağlıq Qarabağı heç cür Azərbaycanın tərkibində görmək istəmirlər. Odur ki, biz ərazi bütövlüyü prinsipi ilə hərəkətə keçməliyik.

***- İsgəndər bəy, düşmən ölkə vaxtaşırı bizi "İsgəndər" raketləri ilə hədələyir. Azərbaycana qarşı bu silahdan istifadə edə bilərlərmi?***

- "İsgəndər" raketləri ballistik raketlərdir, kontinental raketlərdir. Onlar bununla xof yaradırlar. Onun Azərbaycana atılma faizi sıfırdır. Ermənistan nə o raketləri istifadə edə, nə də ata bilər. Bunun hamısı vahimə yaratmaq üçündür. Sözsüz ki, onlarda silah var, rusun verdikləridir, SS-400, SS-500 ola bilər. Amma onlara "İsgəndər" raketini verməzlər də. Hətta Kaliningradda Rusiya bu raketləri yerləşdirdi, bütün dünya etiraz etdi. O raketlər 8-10 min km-i vura bilir, özü də nüvə silahı daşıyıcısıdır. Ermənilərdə belə raket yoxdur, sadəcə yalan danışırlar.

***- Böyük savaş başlayacağı halda Naxçıvandan İrəvanın hədəfə alına biləcəyi də ehtimal olunur. Bu, nə dərəcədə real görünür?***

- Əslində burada qeyri-adi heç nə yoxdur. Heç arada elə böyük məsafə də yoxdur ki, istisna edək. Amma inanmıram ki, Ermənistan ağlasığmaz hərəkətə əl ata bilər. Ermənistan özü də anlayır ki, biz Ermənistan əraziləri uğrunda müharibə etmirik. Müharibə başlasa, Qarabağ, Dağlıq Qarabağ uğrunda gedəcək. Aprel döyüşlərində bir daha sübut olundu ki, ermənilər tərəfdə Suriyadan, Livandan gələn muzdlular döyüşür, hətta onların meyitlərini götürməkdən imtina etmişdilər. Ermənistan cəsarət tapıb Azərbaycana müharibə edə və ya Naxçıvanı vura bilməz. O vaxt Qarabəkir Paşa Naxçıvandan çıxmadı, ancaq o zaman imzalanmış müqaviləyə bir əlavə edildi ki, Naxçıvana müdaxilə olarsa, Türkiyə Naxçıvanın tərəfində çıxış edə, ora qoşun yeridə bilər. Ona görə də ermənilər buna cəsarət etməz.

***- Kəlbəcərin işğal günü yəqin ki, Kəlbəcər girovlarını necə xilas etmək barədə də düşünürsünüz...***

- Allah qapılarını açsın, tezliklə ailəsinə qovuşdursun! Dilqəmlə Şahvazın məsələsi sanki unudulub. Bir ürəkaçan məsələ var ki, "Qaçqınkom"un sədri Əli Həsənov bu işlə məşğuldur, onların ailəsinə də köməklik göstərir. Amma ümumilikdə sanki bu iş unudulub. Bunlar da qəhrəmandır. 7 dəfə düşmən arasında gedib-qayıdan adamlar əlbəttə ki, qəhrəmandır. Ona görə də onların haqqında danışanda mənim ürəyim ağrıyır. Dilqəm kimi, Şahbaz kimi dağ boyda oğullar əriyiblər. Görün onların başına nə oyunlar açılır. Qızıl Xaç Cəmiyyəti gedib ermənilərin yanında bunlarla danışır, belə vəziyyətdə Dilqəmlə Şahbaz nə deyəcək? Mən bir dəfə də sizə demişdim, onları xilas etməyin yolu 3-4 dənə ağır çəkili erməni gətirib onları dəyişməkdir. Adama çox pis təsir edir ki, niyə biz həmişə onlardan nə isə xahiş etməliyik, qoy onlar da bir dəfə bizdən xahiş etsinlər.

***- Dilqəm Əsgərov və Şahbaz Quliyevin vaxtilə sərbəst gedib-gəldiyi məxfi yollarla düşmənin işinə keçib uğurlu əməliyyatlar keçirmək imkanını əldən verdiyimizə görə təəssüflənmirsiniz ki?***

- Yadındadırsa, vaxtilə bununla bağlı da demişdim. Söz vermişdim ki, 200 nəfərlə Kəlbəcəri götürməyə hazırıq, arxadan kömək gələrsə... Bax, onda o yollar bağlanmamışdı. Onda hələ onlar orda postları möhkəmlətməmişdilər, insanlar az idi. İndi ermənilər İrəvanla Kəlbəcərin arasında avtoban salıblar. İndi Kəlbəcəri tamamilə əhatə ediblər, başa düşülər ki, bu hadisə ola bilər. O vaxt Allahın altında bir partizan dəstəsi yaradaydılar, biz də gedib düşmən arxasında işimizi görəydik. O vaxt elə mən sizin qəzetdə müraciət etmişdim. Amma əfsuslar olsun ki, biz dediyimiz havada qalır, qulaq asan olmur. Belə çıxır ki, guya biz yalandan deyirik, ya təhlükəli adamıq. Qarabağ məsələsində iqtidar-müxalifət məsələsi yoxdur. Vahid Azərbaycan xalqı, onun torpaqları azad etmək cəsaqrəti, qətiyyəti var.

### "Hamı bilir ki, Ermənistanı qudurdub üstümüzə salan Rusiya imperiyasıdır"

***- İsgəndər bəy, keçmiş istiqlalçı deputatlardan biri Vahid Əhmədova "Şöhrət" ordeni verildi. İstiqlalçı deputat kimi bu xəbəri necə qarşıladınız?***

- Məndən soruşursunuzsa, elə bu orden verilənlərdən əl layiqlisi elə Vahid Əhmədovdur. Həm istiqlalçı deputat, həm öz söz-söhbəti olan adamdır, həm obyektiv mövqe sahibidir, hərəkətində bir ardıcıllıq var, həm də yaxşı iqtisadçıdır. O, hətta "İstiqlal" ordeninə layiqdir. Mən sizin qəzetiniz vasitəsilə onu təbrik edirəm, uzun ömür, can sağlığı arzulayıram.

***- Növbəti il sizin yubileyinizdir, könlünüz istərdimi dövlət tərəfindən təltif olunasınız?***

- Mən hesab edirəm ki, təkcə İsgəndər Həmidova yox, istiqlalçı deputatların hamısına "İstiqlal" ordeni verilməlidir. Onların çox hissəsi dünyasını dəyişib, bu, onların ruhu qarşısında da yaxşı iş olar...

**Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 67 (6681) 3 aprel 2017



# Dodaq yeri

Zamin HACI
zaminhaci@gmail.com

**Keçən həftə sosial şəbəkələrdə, cəmiyyət arasında, mediada ən qaynar müzakirə temalarından biri jurnalist X.Səfəroğlunun metroda öpüşənlərə göstərdiyi reaksiya oldu. Bu müzakirələr hətta ölkəmizin sərhədlərini aşıb Britaniyanın BBC radiosunun rus redaksiyasında reportaja qədər gedib çıxdı.**

Ortada hadisənin çoxlu interpretasiyaları var. Biri deyir, öpüşmək olmayıb, hələ öpüməyə hazırlaşarkən jurnalist onları təpikləyib vaqondan qovub. (Jurnalistin özü qalmaqalın ilkin mənbəyi olan facebook statusunda belə yazmışdı). Başqası dedi, təpikləmə olmayıb, sadəcə üstlərinə təpinib, sözlə qovub. Mənim məqsədim bu detalları araşdırmaq deyil, mənası da yoxdur. Ancaq hadisənin doğurduğu rezonansın sosioloji baxımdan analizinə ehtiyac var.

Birincisi, jurnalistlər cəmiyyətin avanqardı, qabaqda gedən hissəsi sayılır. Təəssüf ki, bu məsələdə bəzi jurnalistlər hətta ənənəvi dini kəsimdən də radikal göründülər, ictimai yerlərdə öpüşənləri linç etməyə çağırdılar. Eyni zamanda, cəmiyyətdə qarşıdurma anlarında media alova su səpməlidir, müəyyən qədər həm də barışdırıcı olmalıdır. Ancaq gəlin görək hörmətli yazarımız Samir Sarı keçən həftə o qalmaqalda bir-birini söyənlərə yazısında necə şərh vermişdi: "Özü də təkcə jurnalist yox, onu bu və ya digər şəkildə müdafiə edənlər də söyülür. Bir gənc oğlan atası yaşda kişiyə insan bədəninin adıçəkilməz üzvlərinin tez-tez zikr olunmasıyla elə bir isterik cavab yazmışdı, o sözlərin beşdə birini üzbəüzdə demiş olsa, onu morqa, kişini də içəri aparardılar (hərçənd oğlan qətl yerinə hazırlıqlı gəlsə, özüylə kəsici-deşici alət gətirmiş olsa, tərsinə də ola bilərdi)".

Diffamasiyadan əziyyət çəkən bir media orqanının nümayəndəsi cəmiyyətdə təhqirlərə qarşı görün nələr təklif edir. Kimsə başqasını təhqir edibsə, bunun qanunla cəzası var. Cərimələr, inzibati həbs, minimum halda isə "sən də onu söy, bitsin" deyə bilərik. Burda isə cinayət təbliğatı, bir növ təhrik var. İlk dəfə deyil bu müəllif belə cümlələr yazır, təəssüf ki. Mediada bu tip "qədeş", "məhəllə təfəkkürü" ayıb bir haldır.

İkincisi elə qanun məsələsidir. Yeri gəlmişkən, bəyənmədiyimiz iqtidar bu öpüşmə temasında bir çox özünü sekulyar sayan jurnalist-"qeheteşnik"-politikdən daha mütərəqqi göründü, ya da özünü belə göstərdi. Bulvar idarəsi, şəhər polisi, həmçinin metro idarəsi Azərbaycanda öpüşməyə heç bir qadağa qoyulmadığını açıqladılar.

Hüquqi tənzimləmə əslində burada ən önəmlisidir. Əgər insanlar cəmiyyətdə davranışlarını "mentalitet", "milli əxlaq", "bizim dəyərlər" kimi yayğın, hərənin özündən çıxartdığı müxtəlif prosedurlara uyğunlaşdırsalar, həmin ərazidə yaşayış mümkünsüz hala gələr. Dövlətdə hər şey qanunla müəyyən olunur, qanun qadağan eləmirsə, həmin hərəkəti etmək olar. (Sözgəlişi, bəzi idiotlar guya çox ağıllı çıxıb "İndi küçədə öpüşməyə icazə versək bu adamlar sabah küçədə "kiçik ehtiyaclarını" ödəyərlər" tipli şərh verirdilər. Öpüşməklə ifrazatı eyni kateqoriya sayanların öpdüyü adamlara yazığım gəlir). Üstəlik, əgər həmin "mentalitet və milli dəyər" belə yaxşıdırsa, onu niyə indiyə qədər qanun şəklinə salmamısınız? Şəriət dövləti qurulan bəzi yerlərdə belə qanunlar var.

"Gözümüzün qabağında öpüşməsinlər" arqumenti də cılızdır. Guya boyunun ardında, yan tərəfdə olsa dözərmişlər. Təxminən hökumətin sərbəst toplaşma hüququnu istirahət hüququ ilə qarşılaşdırıb mitinq və piketlərə qadağa qoymasına bənzəyir. "Gözün qabağı" deyə bir hüquqi anlayış yoxdur, ictimai yer anlayışı var, dövlətin münasibətindən də göründü ki, ictimai yerlərdə öpüşmək qadağan deyil.

Öpüşən insanlara baxmaq, yeri gəlmişkən, sağlam insanda ancaq müsbət emosiya yarada bilər, burda axı pis nə var? İnandırıcı deyil ki, öpüşə qarşı çıxanlar kinolarda belə səhnələr olanda durub ekrana təpik atırlar. Uşaqları bəhanə edən olacaqsa, qeyd edim ki, heç bir ağılla idarə edilən ərazidə indiyə qədər öpüş səhnələri olan filmlərə "18 +" kateqoriyası verilməyib.

Bəzi idiotlar isə müzakirə zamanı "Sizin bacınız küçədə öpüşsə nə edərsiniz" sualı verirdilər. Onları ona görə idiot adlandırıram ki, fərqinə varmırdılar: başqalarının bacısını müzakirə etmək hüquqları yoxdur! Başqalarının şəxsi həyatını, ictimai davranışlarını müzakirə etmək və ya çərçivəyə salmaq haqqını bunlar hardan alıblar? Axı bu, yalnız müəyyən hallarda dövlət orqanlarına aid funksiyadır.

Hətta lap dərinliyə varsaq, insan cəmiyyətində "sənin bacın" deyə bir anlayış yoxdur. Bütün insanlar bacı və qardaşdır. İnsanı heyvandan fərqləndirən ilk növbədə elə bu sosiallığıdır. Üzeyir bəyin qəhrəmanı demişkən, "çelovek jivotnoe obşestvennoye". Mən mənimlə eyni ata-anadan doğulmayan insanlara bacım və qardaşım kimi baxmasam, daha bunun harası insanlıq oldu?

Nəhayət, cəmiyyətin, xüsusilə gənclərin bu məsələdə X.Səfəroğlunun hərəkətinə etirazlarının məncə bir siyasi səbəbi də var idi. Onlar sanki demək istəyirdilər: "Öpüşmək bizim axırıncı azadlığımızdır, indi onu da qadağan edirsiniz!". Axı doğrudan da bu gənclərin təhsil, iş, sağlamlıq, ailə qurmaq, siyasətlə məşğul olmaq və sairə fundamental insan hüquqları hər gün tapdalanır, Azərbaycan yaşanmaz hala gəlib və ayağı yer tutan mühacirət edir. Bu durumda isə biri qıraqdan çıxıb deyir, öpüşmək də olmaz. Obrazlı desək, dolmuş səbr kasasının qırağından bir öpüş alınmışdı. Gərək cəmiyyət üçün səbr kasasında "dodaq yeri" qoyasan.

# İşğalçı ölkə hər an qarışa bilər - həftənin mühüm gözləntisi




## Ermənistan altına "gec partlayan" seçki bombası - düşmən ölkə tarana doğru...

İşğalçı ölkədə kritik seçkilər baş tutdu, ancaq...; Sərkisyan rejiminin seçki manipulyasiyaları nəticələrin legitimliyini şübhə altına qoyub; polis xalqı hədələdi; ekspertlərdən seçkisonrası ilginc proqnozlar; "Yaxın gələcəkdə Sərkisyan hər şeydən məhrum olacaq..."

**Ermənistanda 2 aprel kritik parlament seçkiləri baş tutdu. Ölkənin siyasi idarəçilik sisteminin yeni - parlamentli idarəçiliyə keçidinin əsasını qoyacaq bu seçkilərin cəmiyyətə və hakimiyyətə konkret nə vəd etdiyi isə hələlik bəlli deyil. Proses təzə başlayıb və yəqin ki, önümüzdəki günlərdə və ya həftələrdə işğalçı ölkədə daxili ictimai-siyasi vəziyyətin hansı məcrada inkişaf edəcəyinin konturları aydınlaşacaq.**

Hələlik yalnız bunu əminliklə söyləmək mümkündür ki, seçki kampaniyası dönəmində prezident Serj Sərkisyanın hakim partiyası öz öhdəsindəki inzibati resurslardan gen-bol yararlana bilib və formal seçki yarışını bütünlüklə öz nəzarətində saxlayıb. Paralel surətdə, yeni seçkilərə nəzarəti saxlamaq üçün siyasi həbslər həyata keçirib, opponentlərə qarşı başqa qanunsuz və repressiv üsullardan yararlanıb.

Bu da böyük ehtimalla, nəticəsiz ötüşməyəcək və seçkisonrası siyasi kataklizmlərdə özünü göstərəcək. Ən maraqlısı da belə kataklizmlərə kriminal Sərkisyan rejiminin necə reaksiya verəcəyidir. İstisna deyil ki, hakimiyyətin ömrünü uzatmaq üçün Sərkisyan 2008-ci ildəki kimi, bu dəfə də lazım gələrsə, güc faktorundan istifadə etməkdən və qan tökməkdən çəkinməyəcək. Bəzi iddialara görə, bundan ötrü o, hətta İrəvana işğal altındakı Dağlıq Qarabağdan özünə ən sadiq hərbi qüvvələr də gətirib. Hərçənd, siyasətdə "bir suya iki dəfə girməyin"qəliz olduğu də bəlli həqiqətlərdəndir.

Bir sözlə, Ermənistan seçkilərdən sonra hər an qarışa bilər. Dünən - səsvermə günü düşmən ölkədən gələn xəbərlər, seçki pozuntuları və qarşıdurmaları, habelə vətəndaşların saxtakarlıq əleyhinə etirazlara başlaya biləcəyindən ehtiyatlanan hakimiyyətin xalqa "polis mesajı" verməsi bu ehtimalı gücləndirir ki, zəifləmir. Belə ki, ölkənin polis rəisi Vladimir Qasparyan səs verəndən sonra jurnalistlərin qarşısında etirazçı qüvvələrə xəbərdarlıq edib. Deyib ki, hazırda sülhə və sakitliyə daha çox ehtiyac var.

*****

Beləliklə, Ermənistan 2 apreldən sonra kifayət qədər həssas və gərgin bir mərhələyə daxil olub. Bu mərhələnin işğalçı ölkəyə nə(lər) vəd elədiyi barədə siyasi və hərbi ekspertlərin maraqlı şərhləri var.

Rusiyalı politoloq Nikita İsayev bu xüsusda hesab edir ki, hakim rejimin seçki kampaniyası dövründə istifadə elədiyi manipulyativ texnologiyalar səsvermənin nəticələrinin legitimliyini bəri başdan şübhə altına alıb. "Belə texnologiyalar, o sırada maliyyə manipulyasiyaları olduqca çoxlu sayda olub və bunlar şübhəsiz ki, yeni parlamentin formalaşmasına kölgə salır - hansı parlament ki, respublikada prezidentli idarəçilikdən parlamentli idarəçiliyə keçid zamanı siyasi hakimiyyətin dəyişdirilmiş konstruksiyasında birinci olacaq", - deyə politoloq söyləyib.

Musavat.com-un məlumatına görə, bu barədə "Vestnik Kavkaza" nəşrinə danışan ekspert daha sonra deyib: "Mən Serj Sərkisyanın Respublika Partiyasının yeni siyasi konfiqurasiyada qalması üçün böyük istəyini görürəm - baxmayaraq ki, ölkədə olduqca böyük gərginlik var və əhalinin hakimiyyətə etimadı aşağı səviyyədədir, hansı etimad səviyyəsi ki, ötən yay insanların müxtəlif bəhanələrlə küçələrə çıxmasında və İrəvanda polis alayı binasının ələ keçirilməsində özünü bir daha göstərib. Hesab edirəm ki, belə bir seçki kampaniyası hakim partiyanın legitimliyinə heç nə əlavə eləməyib və Ermənistanda istənilən siyasi konfiqurasiyada - istər prezidentli üsul-idarə olsun, istərsə də parlamentli - siyasi qüvvələr balansının altına "gec partlayan" bomba qoyub".

Politoloq seçki kampaniyası dövründə Dağlıq Qarabağ mövzusundan istifadə olunmasına da toxunub. "Məqsədə çatmaq üçün ənənəvi olaraq bu məsələdən də istifadə edildi. Sərkisyanın az öncə "İsgəndər"lə bağlı hədələri - hansı ki, eskalasiya cəhdlərindən biri idi - erməni vətəndaşlardan özünə əlavə siyasi xallar almağa yönəlmişdi. Hər halda, Qarabağ amili Ermənistandakı siyasi proseslərdə prinsipial rol oynamaqda davam edir", - deyə sonda rusiyalı politoloq əlavə edib.

*****

Digər rusiyalı politoloq, təhlükəsizlik məsələləri üzrə ekspert Yevgeni Mixaylov da Ermənistanda 2 aprel parlament seçkilərinin ölkə daxili siyasi vəziyyəti sabitləşməkdən daha çox, gərginləşməyə xidmət edəcəyini proqnoz edir: "Sərkisyan son vaxtlar ciddi siyasi səhvlərə yol verir. O, hakimiyyətini itirəcəyindən qorxduğundan, ölkəsindəki seçkilər ərəfəsində hakim rejiminə dəstək axtarışına çıxıb. Onun Avropa İttifaqı ilə razılaşması, NATO ilə dostluq etmək cəhdləri - bütün bu addımları əsas müttəfiq olan Rusiyanın bostanına daş atmaq deməkdir", - deyə hərbi ekspert qeyd edib.

Hərbi analitik yaxın gələcəkdə Sərkisyanın hər şeydən məhrum ola biləcəyini, belə olan halda Ermənistanla Azərbaycan arasında yaşanan Qarabağ münaqişəsinin real həllinə inam yaranacağını güman edir: "Yeni siyasətçilər gələcək və onlar yəqin ki, dəyişən dünya həqiqətlərinə daha real yanaşacaqlar".

*****

Lakin hələ ki Sərkisyan rejiminin əsas dayağı Rusiya olaraq qalır. Siyasi müşahidəçilərə görə, Ermənistan prezidentinin ötən ay Moskvaya etdiyi səfərdə əsas məqsəd məhz Kremlin seçkilərlə bağlı "dobro"sunu almaq olub və bu "dobro" əslində alınıb. Bununla belə, müxalifətin seçkisonrası kütləvi etiraz aksiyaları davamlı olarsa, bu, hakimiyyətin və seçkilərin legitimliyinə ciddi zərbə vura, eyni zamanda Rusiya üçün başağrısı yarada bilər. O halda həmçinin Sərkisyanın Qərb institutları ilə planlaşdırdığı siyasi bazarlığın əngəllənməsi istisna deyil.

Məsələ ondadır ki, Qərbin bir sıra maliyyə qurumları Ermənistana yardım üçün parlament seçkilərinin demokratik normalara minimum uyğunluğunu şərt kimi qoyublar. Rəsmi İrəvanın Avropa Birliyi ilə imzalamağa hazırlaşdığı, Rusiyanı qıcıqlandıran yeni sənəd də bu amillə bilavasitə əlaqələndirilir. O üzdən Avropa Birliyinin müşahidə missiyasının seçkinin nəticələrinə hansı qiyməti verəcəyi çox maraqlıdır.

Nəhayət, işğalçı ölkədəki seçkisonrası durumun necə inkişaf tapacağı Azərbaycan üçün, Qarabağ məsələsi ətrafındakı situasiya üçün, müharibə, yoxsa sülh perspektivi üçün də az önəm kəsb eləmir. Deməli, Azərbaycan da yaranacaq siyasi və başqa fürsətlərdən operativ şəkildə yararlanmağa hazır olmalıdır.

P.S.Qəzet çapa gedərkən seçkilərin ilkin nəticələri açıqlanmamışdı.

❑ Analitik xidmət

# Moskva silah satışında dünya ikinciliyini necə saxlayır?

**Bu yaxınlarda Rusiya prezidenti Vladimir Putin Rusiyanın silah ixracatının ötən il gözlənilən səviyyədən yuxarı çıxaraq 15 milyard dollara çatdığını bildirib. Bu, dünya üzrə ikinci göstəricidir. Putin Rusiyanın ümumilikdə 58 ölkəyə silah ixrac etdiyinə, Avropa ilə davam etdirilən hərbi-texniki əməkdaşlığın isə dayanma nöqtəsinə gəldiyinə diqqət çəkib. O, silah alıcıları arasında Azərbaycanın da adını çəkib.**

## Vahid Əhmədov: "Rusiyaya qarşı sanksiyaların əksəriyyəti əslində kağız üzərində qalıb..."

Ukraynanın ərazilərinə müdaxilə etdiyi üçün ABŞ, Avropa Birliyi və bir sıra beynəlxalq təşkilatlar, dövlətlər tərəfindən illərdir sanksiyalara məruz qalan Rusiyanın silah satışında bu qədər irəliləməsi ortaya suallar çıxarır. Bu qədər sanksiyalar altında olan ölkə necə olur ki, silah satışında geriləmir, əksinə, irəliləyir?

Milli Məclisin iqtisadiyyat komissiyasının üzvü, deputat Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qəbul edilən sanksiyaların əksəriyyəti əslində kağız üzərində qalır: "Reallıqda isə əksər dövlətlər Rusiya ilə iqtisadi-ticari əlaqələrini davam etdirir, Rusiyadan silah alırlar. Çünki əmindirlər ki, qəbul edilən sanksiyaların çoxu kağız üzərindədir, tətbiq edilmir. Vladimir Putin hakimiyyətə gələndən sonra Rusiyada hərbi sənayenin inkişafına çox ciddi diqqət ayrılmağa başlandı ki, artıq bu siyasət özünün effektini verir, silah satışı Rusiya iqtisadiyyatının çox əhəmiyyətli hissəsini təşkil edir. Rusiya həmişə imperiya iddiasında olan dövlət olub. İndi də bu iddiadadır və bunu gizlətmir. Hərbi sənayesinə bu qədər önəm verilməsi həm də bununla bağlıdır. Regionda və dünyada geosiyasi proseslərdə məsələləri öz xeyirinə həll etmək üçün Rusiya silah istehsalını ildən-ilə genişləndirir. Münaqişələrin həllinə də imkan vermirlər ki, münaqişə tərəfləri Rusiya üçün daimi silah alıcısı olsun. Ümumiyyətlə, dünya ölkələrinə külli miqdarda silah satışı ilə məşğul olan iri dövlətlər hərbi münaqişələrin olmasında



maraqlıdırlar. Çünki münaqişə qaldıqca silaha tələbat da qalır. Həmin dövlətlər silah satışından milyardlarla dollar vəsait əldə edilər. O vəsaitlər həm dövlət büdcəsinə ciddi təsir göstərir, həm də müxtəlif adamların şəxsi mənfəətlərini artırır. Ona görə də hansısa embarqolar müəyyən müddətdən sonra əhəmiyyətsiz hesab edilir və dövlətlər silah satışı ilə məşğul olurlar".

İqtisadçı-deputatın sözlərinə görə, silah satışı dünyada ən ciddi gəlir gətirən sahələr sırasında ilk üçlükdə yer alır: "Silah satışı ilə məşğul olan ölkələrin iqtisadiyyatına bu ticarət çox böyük miqdarda gəlir gətirir. Eyni zamanda, silah satışında həddən artıq maxinasiyalar da olur. Bu maxinasiyalardan mənfəət götürən insanlar hər yerdə var və Rusiyada da mövcuddur".

V.Əhmədov onu da söylədi ki, dünyada olan münaqişələr, ərəb ölkələrindəki müharibələr hamısı həm də silah satışı ilə əlaqədardır: "Diqqət edirsinizsə, son illərdə silahlı münaqişələrin arealı genişləndikcə Rusiya kimi silah ixracatçısı olan dövlətlərin silah satışı da genişlənir".

Qeyd edək ki, Azərbaycan da Rusiyadan silah idxal edən ölkələrdəndir. Bu məsələyə də diqqəti cəlb edən V.Əhəhmədov qeyd etdi ki, münaqişə vəziyyətində olan Azərbaycan və Ermənistan da daha çox silahı məhz Rusiyadan alır: "Rusiya ilə Azərbaycanın siyasi, iqtisadi münasibətləri yaxşıdır. Azərbaycanın ən çox silah aldığı ölkə Rusiyadır. Amma Azərbaycan təkcə Rusiya ilə kifayətlənmir. İsraildən, Türkiyədən, Pakistandan və digər ölkələrdən də silah alır. Azərbaycanın ordusunu müasir silahlarla təmin etmək Azərbaycanın dövlət başçısının apardığı siyasətdir və bu siyasət uğurla aparılır".

Bəs, görəsən Rusiya silahının keyfiyyətinin yüksək olması, yoxsa qiymətinin əlverişli olması dünyanın 50-dən yuxarı ölkəsini rus silahının müştərisinə çevirib?

Deputat dedi ki, hər iki amil və başqa siyasi amillər Rusiya silahını alanların sayına təsir edir.

❑ Etibar SEYİDAĞA

## İrəvana sanksiyalar tətbiq edilə bilər - Qarabağa görə



**İşğalçıya qarşı hər hansı bir sanksiya tətbiq olunmadığı halda Ermənistanı sülhə məcbur etmək mümkün olmayacaq. Bu sözləri Axar.az-a açıqlamasında deputat Asim Mollazadə deyib. Onun fikrincə, Rusiya zaman-zaman danışıqlar prosesini tamamilə öz nəzarətinə götürmək üçün cəhdlər edir, Lavrovun son Qarabağ açıqlaması da, sadəcə, bunlardan biridir.**

"Problem ondadır ki, Minsk Qrupunun həmsədrləri, ümumiyyətlə, hər hansı bir ciddi prosesi idarə etmirlər. İşğalçını sülhə məcbur etmək istiqamətində addımlar atılmır. Ermənistan danışıqların imitasiyası ilə məşğul idisə, indi heç danışıqlarda iştirak etmir. İrəvana bəraət qazandırmaq üçün səbəb kimi parlament seçkisini irəli sürürlər, guya seçkidən sonra Ermənistan bu prosesə qayıdacaq. Lakin beynəlxalq hüquq normalarının pozulmasına göz yumulur. İşğalçıya qarşı hər hansı bir sanksiya olmadığı halda Ermənistanı sülhə məcbur etmək mümkün olmayacaq. İrəvanın əsas məqsədi indiki status-kvonu saxlamaqdır. Çox təəssüf ki, nə beynəlxalq təşkilatlar, nə bir-biriylə rəqabətdə olan həmsədrlər bu prosesdə irəliləyişə nail olmaq üçün heç bir şey etmirlər, ancaq bəyanatlarla öz fəaliyyətlərini məhdudlaşdırırlar", - deyə deputat qeyd edib.

A.Mollazadə hesab edir ki, Azərbaycan artıq hərəkətə keçməli, Ermənistana qarşı sanksiyalar məsələsi beynəlxalq təşkilatlarda daha da aktuallaşdırılmalıdır: "Son zamanlar İrəvanın danışıqlar prosesini pozduğu da beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Bu vəziyyət qəbuledilməzdir. Rusiyanın bu prosesi öz inhisarına götürmək istəyi isə problemi daha da dərinləşdirir. Düzdür, Moskva İrəvanın ən yaxın hərbi müttəfiqidir, ancaq Ermənistan bu prosesdə artıq müstəqil hərəkət edə bilməz. Ona görə beynəlxalq təşkilatlar danışıqlar prosesini bir tərəf kimi bilavasitə Rusiya ilə aparmalıdır".

# Rusiyada baş nazir gəlir bəyannaməsi təqdim etdi, bəs Azərbaycanda...

**Rusiyanın baş naziri Dmitri Medvedyev və hökumət üzvləri 2016-cı il üzrə gəlir bəyannamələrini təqdim ediblər. Bu barədə Rusiya qaynaqları məlumat yayıb.**

## 2005-ci ildə qəbul edilən qanunun tətbiqi 12 ildir dalana dirənib - səbəb; ekspert: "Bu məlumatların açıqlanması ictimai nəzarətin daha yaxşı təşkilinə mühüm töhfə verə bilər..."



Azərbaycanda da vəzifəli şəxslərin gəlir bəyannaməsinin təqdim etməsini nəzərdə tutan, lakin hələ ki, ənənəyə çevrilməyən qanun var. "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları" adlı qanun 2005-ci ildə qəbul edilib.

12 il öncə Milli Məclisdə qəbul edilən qanun icra edilmir. Bu qanun hər ilin əvvəlində yüksək vəzifəli məmurların illik gəlir və əmlaklarını açıqlamasını nəzərdə tutur.

"Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları" adlı qanun 2005-ci ildən qüvvəyə minib. Həmin ilin avqust ayında xüsusi fərmanla 3 ay müddətində gəlir bəyannamələrinin formasının hazırlanması barədə Nazirlər Kabinetinə göstəriş verilib. Amma bu günə qədər gəlir bəyannaməsinin rəsmi forması təsdiq edilməyib. Məsələyə cavabdeh olan nazirliklər də bəyannamə formasının çoxdan hazırlanaraq Nazirlər Kabinetinə göndərildiyini bildirirlər. Nazirlər Kabinetinin bu məsələni niyə gecikdirdiyini isə öyrənmək heç cür mümkün deyil.

2012-ci ildə məmurların gəlir bəyannamələrinin elektron formada tətbiq edilməsi üçün başqa bir fərman da verilib. Fərmandan sonra güman olunurdu ki, artıq 2014-cü ilin yanvar ayının 1-dən məmurlar elektron formada gəlir bəyannamələri təqdim edəcəklər. Amma bununla belə, hələ də Azərbaycan məmurları gəlir bəyannamələri tətbiq etmirlər.

2005-ci ildə qəbul edilmiş qanunda nəzərdə tutulmuş qayda əksər inkişaf etmiş ölkələrdə, hətta Rusiyada tətbiq edilir. Postsovet məkanında bir sıra ölkələr bu qanunu tətbiq etməklə korrupsiyaya qarşı mübarizədə müəyyən irəliləmələr əldə ediblər. Azərbaycanda isə sözügedən qanunun icra mexanizminin olmaması bu istiqamətdə irəliləyişə mane olur. Bu məsələyə korrupsiya əleyhinə ölkələr qrupunun (GRECO) 2015-ci ildə Azərbaycan üzrə verdiyi hesabatında da toxunulurdu.

Ekspertlər bildirir ki, vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi, ictimai nəzarətin təşkil edilməsi, məmurların hesabatlığının artırılması sahəsində çox mühüm alət olardı. QHT rəhbəri Mirvari Qəhrəmanlının sözlərinə görə, əslində, bu məsələ 2015-ci ildə öz həllini tapmalı idi. Çünki məmurların gəlir bəyannaməsinin tətbiqi korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında da nəzərdə tutulmuşdu. Amma məsələ həllini tapmadı. Vəzifəli şəxslər hələ ki, bu işi gerçəkləşdirməyi mümkün saymırlar. Məsələn, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev 2015-ci ilin əvvəlində bildirmişdi ki, bəzi ölkələrdə bu sənədin tətbiqi səmərə vermədiyindən Azərbaycanın hüquq sisteminə ən uyğun format öyrənilir. Vergilər naziri Fazil Məmmədov isə məmurlardan gəlir bəyannamələrini 2020-ci ildə tələb etməyin mümkün olacağını söyləmişdi.

Ekspert qanunun icrasına daha tez keçməyi vacib sayır. Çünki məmurlar şübhəli və qeydiyyata alınmayan böyük gəlirlərə malikdirlər: "Hər il bəyannamələr təqdim etsələr, həmin gəlirlərin səviyyəsi xeyli aşağı düşə bilər.

Gəlir bəyannamələrinin tətbiqi üçün Azərbaycanda maliyyə amnistiyası və korrupsiya faktları barədə məlumat verən vətəndaşların qorunması məsələsi də həll edilməlidir. Bunları etmədən qanunun tətbiqi çətin olacaq. Bu məlumatların açıqlanması öz növbəsində ictimai nəzarətin daha yaxşı təşkil olunmasına da əhəmiyyətli töhfə verə bilər. Çünki vətəndaş cəmiyyəti institutları məmurların cəmiyyət qarşısında hesabatlılığının təşkil olunması üçün zəruri məlumatlara çıxış əldə etmiş olardı. Əslində qanunun tətbiqinin bu qədər gecikdirilməsi anlaşılan deyil".

❑ E.SEYİDAĞA



# İtən eşşəklər tapılmadı, indi də atlar itir...

Samir SARI

**Bizdə xasiyyətdir, gündəmə düşən mövzunu çeynəyib çürüyünü çıxarar, yüz cür lağlağı söhbətlər edərik, ancaq ciddi bir rəyə, ortaq məxrəcə gəlməmiş dağılışar, ertəsi gün başqa bir mövzu tapıb çürütməyə başlarıq.**

Nə oldu, itən eşşəkləri tapdıqmı? Tapmadıq. Bu xüsusda nəsə bir hüquqi hərəkətin edilməsinə nail olduqmu? Olmadıq. Ən azı "əhalinin qida təhlükəsizliyinin təmin edilməsi" istiqamətində bir komissiya, araşdırma qrupu yaradıla bilərdimi? Bilərdi. Yaradıldımı? Yaradılmadı. İctimai müzakirələr iki günün içində bitdimi? Bitdi.

Bəs paytaxt əhalisinə yedirdilmək üçün şəhərə at və eşşək əti gətirilməsinin arası kəsildimi? Kəsilmədi. Şəhərin murdar və qeyri-ənənəvi ət məhsulları ilə təchiz edilməsi davam edirmi? Edir.

Söhbət budur. Elə gün olmur ki, şəhərə murdar mal-davar, eləcə də at-eşşək əti gətirilməsin.

Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat katibi Yolçu Xanvəli az qala hər gün redaksiyalara müvafiq məlumatlar göndərir. Hamısında da söhbət paytaxta gətirilən murdar ət məhsullarının aşkar olunmasından gedir.

Bu, hələ Yolçu Xanvəlinin iş yoldaşlarının tapdığı, tutduğu ət məhsullarıdır, güman ki, aysberqin üçdə ikisi suyun altında olduğu kimi, murdar ətlərin də üçdə ikisi görünməz yerlərdə şəhərə girir.

Əlbəttə, o ətləri gətirib topdan Balaxanı zibilliyinə atmırlar, bunun topdansatışı ilə məşğul olanlar varsa, pərakəndə satışı ilə də məşğul olanlar var.

O cür ətləri gətirənləri tuturlar, bildik, bəs o at-eşşək ətinin emalı ilə məşğul olanlardan kiminsə tutulduğunu eşitmişikmi? Eşitməmişik.

Sadəcə, bu kimi informasiyaları çox alan adamlar ət dönəri, lahmacun, pide, lüləkabab kimi çəkilmə ətdən hazırlanan qidaları yeməkdən imtina edirlər, vəssalam.

Neçə vaxtdır, fikir verirəm, toylarda lüləkabab masanın üzərində qalır, çox adam əl uzatmır. Hansısa restoranda oturanda ofisiant menyuda olan təamları saya-saya lüləkababa çatanda dörd nəfərdən biri mütləq soruşur: "Ət döymədir, yoxsa maşında çəkilmə?". Əgər ikincidirsə, onda o təamdan imtina edilir. Çünki artıq maşında çəkilərkən həmin ət kütləsinə başqa at məhsullarının qarışdırılmadığına təminat, zəmanət yoxdur.

Deyirlər, o cür haram ətləri daha çox kolbasa sexlərinə verirlər. Buna şübhə edən varmı? Əlbəttə, murdar ətlər daha çox o sexlərə verilir. Çünki ətin kilosunun 11-12 manat olduğu vaxtda kolbasanın bir kiloqramının 5-6 manat olması məhsulun keyfiyyətinə şübhə yeri qoymur.

Biz supermarketlərdə təşər-təşər soruşuruq: "Kolbasanız halaldırmı"? Onlar da əminlik və qətiyyət dolu sifətlə deyirlər: "Bəli, halaldır. Dana ətindəndir. Donuz əti qarışığı yoxdur".

Sanki kolbasada donuz əti olsa, məmulat haramdır, amma at və eşşək əti olsa, haram deyil, halaldır.

Bu kimi məhsulların keyfiyyətinə cavabdeh olan bir dövlət idarəsi də var: Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi. Millətə haram kolbasa, murdar dönər, qarışıq lüləkabab yedirdilməsinin qarşısını bu komitənin işçiləri almalıdırlar. Alırlarmı? Almırlar. Bəlkə də alırlar, amma qarşısını yox, qarşılığını.

(Ola bilər, həmin komitə tamamilə ləğv olunub, müəllif bilmədən yazır. Köhnələrdə həftənin cümə günləri YAP-ın qərargahında brifinq-zad keçirərdilər, biz də ölkədə nə kimi nazirliklər, komitələr olduğunu bilərdik).

Bəs çıxış yolu nədir? Bir çox tədbirlər görülməlidir:

1. Kənddə-kəsəkdə eşşəkləri qorumaq, onları şübhəli məqsədlərlə ucuz almaq istəyənlərə satmamaq. Eşşəyi minəcəksənsə, saxla, minməyəcəksənsə, artırma.

2. Əlində, maşınında at-eşşək əti tutulmuş şəxsə şahidlərin gözü qabağında həmin ətdən hazırlanmış kabab, qovurma (küftə-bozbaş da olar) yedirtmək. Qoy ürəkləri ağızlarına gələnə qədər öyüyüb qussunlar.

3. Haram kolbasa istehsal edib xalqa satanların gözünə öz məhsullarını soxmaq (hal şahidlərinin yanında). Qoy görsünlər ki, adı kimi, zadı var.

4. "Halaldır, dana ətindəndir" deyən yalançı satıcılara "yalan deyən eşşəyin oğludur" deyə xəbərdarlıq etmək. Bu kəlmə onların bir çoxunun vicdanlarını oyadacaq, daha yalan danışmayacaqlar.

Qoy qalan preventiv tədbirləri də aidiyyatı orqanlar görsünlər və millət sırf bərbad qidalar üzündən xəstə düşməsin.

# Şəmkirin icra başçısı ölümdən döndü - gizlədilən bir avtoqəzanın ilginc təfərrüatları

## Alimpaşa Məmmədov və iki oğlu ölümün pəncəsindən necə qurtulub, Bakıya gizli şəkildə göndərilən ağır yaralı kimdir? Şahidlər deyir ki...

**Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov avtoqəzaya düşüb. Başçının olduğu avtomobildə özündən başqa 2 oğlu da olub. Sükan arxasında isə sürücü deyil, icra başçısının köməkçisi olub.**



Maraqlıdır ki, dəhşətli qəza dərhal ört-basdır edilib. Lakin başçının qəza keçirməsi xəbəri qısa zamanda Şəmkirə yayılıb. Qəza anından az sonra ərazidən keçənlər icra başçının olduğu maşının foto və videosunu da çəkə biliblər. Bu haqda redaksiyamıza daxil olan xəbərdə deyilir ki, qəza martın 25-də, Şəmkir Su-Elekrik Stansiyasından rayon mərkəzinə gedən yolun Yeniabad kəndi ərazisindən keçən hissəsində, günorta 2-3-də radələrində baş verib.

Hadisə şahidlərinin sözlərinə görə, başçının köməkçisi Mahir Əliyevin idarə etdiyi Az 57 AA 001 dövlət nömrə nişanlı, qara rəngli "Tayota Land Cruiser" markalı avtomobil qəfil və yüksək sürətlə qarşı yola çıxıb. Həmin vaxt qarşı yolda Mingəçevirin Əzizbəyov küçəsi 12 ünvanında qeydiyyatda olan 1947-ci il təvəllüdlü Həsən Əvkər oğlu Hüseynov özünə məxsus "Qaz - 31" markalı avtomobillə hərəkətdə imiş. H.Hüseynovun sükan arxasında professional davranışı dəhşətli qəzanın ölümsüz sonuclanmasına səbəb olsa da, onun özü ağır bədən xəsarətləri alıb. Dəhşətli toqquşma anında başçının olduğu maşında təhlükəsilzik yastıqları açıldığından A.Məmmədov, 2 övladı və köməkçisi yüngül əzilmələrlə canlarını qurtarıblar.

Avtomobildən düşən A.Məmmədovun köməkçisinin ilk işi qarşı maşındakı sürücünün sağ olub-olmamasını yoxlamaq olmayıb. M.Əliyev dərhal idarə etdiyi maşının nömrə nişanlarını açıb. Bunu ona görə ediblər ki, qəzanın baş verməsini sonradan ört-basdır edə bilsinlər. Elə belə də olub. Ötən 1 həftədən çox müddət ərzində olay geniş ictimaiyyətdən gizlədilib. Qəzadan sonra dağılıb sıradan çıxan "Qaz-31" markalı maşının sürücüsünü isə əraziyə gələn təcili tibbi yardım əməkdaşları aparıblar. Sürücünün onurğası zədələnib, bazu sümüyü sınıb. Onu Şəmkir Rayon Mərkəzi Xəstəxanasına aparıblar. Orada ilkin tibbi yardım göstərilib, qeydiyyata alınıb. Bundan sonra Alimpaşa Məmmədovun göstərişi ilə gecə yarısı H.Hüseynovu Şəmkir Rayon Mərkəzi Xəstəxanasından çıxarıb Bakıya, özəl klinikalardan birinə aparıblar.

Verilən məlumatda qeyd olunur ki, A.Məmmədovun göstərişi ilə qəza digər avtomobilin sürücüsü - yəni H.Hüseynovun xətası üzündən baş verdiyi kimi rəsmiləşdirilib. Günahı digər nəqliyyat vasitəsi sürücüsünün üzərinə yıxıblar. Sənədləşmədə elə göstərilib ki, guya qəzaya səbəb digər sürücü olub.



Hadisə yerində olanlar deyirlər ki, əslində "Qaz-31" markalı avtomaşının sürücüsü qəzadan yayınmaq üçün yoldan belə çıxıb, lakin başçının olduğu və yüksək sürətlə hərəkətdə olan maşından yayına bilməyib. Sürücünün özünü itirməməsi həm də onun həyatını xilas edib. Ağır bədən xəsarətləri alsa da, dəhşətli qəzadan o da sağ çıxıb. Hadisə şahidləri deyir ki, Alimpaşa Məmmədovu, övladlarını və başabəla köməkçisini dəhşətli qəzadan xilas edən maşının təhlükəsizlik yastıqları olub. Şahidlərin sözlərinə görə, əgər yastıqlar vaxtında açılmasaydı, qəza başçı və onunla birgə nəqliyyat vasitəsində olanlar üçün acı sonluqla bitə bilərdi.



Qəzadan sonra məlum olub ki, başçı övladları və köməkçisi ilə birgə Şəmkir Su-Elektrik Stansiyasının yaxınlığındakı elit istirahət zonasından, oradakı Kür qəsəbəsindəki restoranlardan birindən gəlirmişlər. Başçı Novruz bayramı ilə əlaqədar tətil günlərində ona baş çəkməyə gələn övladları ilə birgə gəzintiyə çıxıbmış. Qəzadan sonra icra başçısı köməkçisi M.Əliyevin sürücü olaraq xidmətlərindən istifadə etməyi tərgidib. Dövlətin vəsaiti hesabına alınan avtomobil isə hazırda təmirdədir.



Avtoqəza ört-basdır olunduğundan A.Məmmədov hazırda qəzada zədələnən "Tayota Land Cruiser" markalı avtomobilə bənzəyən digər nəqliyyat vasitəsindən istifadə etməyə başlayıb. Bakıda müalicə olunan Həsən Hüseynovun sağlıq durumunun orta-ağır olduğu bildirilir.

Məsələ ilə bağlı A.Məmmədovun mövqeyini də dinləməyə hazırıq.

❑ E.MƏMMƏDƏLİYEV

# Bakıda qardaş və bacının başını kəsən şəxs tutuldu

**Bakıda dəhşətli qətl törədilib. Nərimanov rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə Montin qəsəbəsində qeydə alınıb.**

Qəsəbə sakini Lətifə Qasımovanın yaşadığı evə gələn naməlum şəxs ev sahibəsinə - L. Qasımovaya bıçaqla xəsarət yetirib, onun övladları - 2001-ci il təvəllüdlü Saqil Səxavət oğlu Qasımzadə və 1991-ci il təvəllüdlü Fərizə Səxavət qızı Qasımzadəni boğaz nahiyəsini kəsməklə qətlə yetirib. Həmin şəxs daha sonra evdən 207 ABŞ dolları və 250 manat pulu götürərək hadisə yerini tərk edib.



Baş vermiş hadisə ilə bağlı Nərimanov rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1; 120.2.7; 120.2.11; 29,120.2.7; 181.3.3 maddələri ilə cinayət işi başlanıb. Nərimanov rayon Prokurorluğu və rayon Polis İdarəsi əməkdaşlarının birgə həyata keçirdikləri təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Astara rayon sakini, əvvəllər məhkum olunmuş 1997-ci il təvəllüdlü Azər Nəriman oğlu Cəfərov tutularaq istintaqa cəlb olunub. Ondan cinayətdə istifadə etdiyi bıçaq maddi sübut kimi götürülüb. A. Cəfərov tutularkən L. Qasımovanın evindən götürdüyü 207 ABŞ dolları da onun üzərində olub.

Qeyd edək ki, zərərçəkən L. Qasımova hadisəni törədən A. Cəfərovun həyat yoldaşının xalasıdır. İlkin məlumata görə o, həmin mənzilə qarət məqsədi ilə daxil olubmuş.

YENİ MÜSAVAT
N 67 (6681) 3 aprel 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**İşğalçı Ermənistan və havadarlarına yaxşı dərs olmuş "4 günlük müharibə"nin birinci ildönümüdür. Bu hadisə, heç şübhəsiz, 1994-cü ildən sonrakı atəşkəs dövrünün böyük bir hissəsinə simvolik bir yekun vurmuş oldu - həm də Azərbaycanın xeyrinə. Eyni zamanda, atəşkəsin əvvəlki kimi on illərlə sürməsinin mümkünsüzlüyünü, Qarabağa dair təcili həll variantının tapılması vacibliyini ortaya qoydu. Təbii ki, Azərbaycan xalqının öz ərazilərinin işğalı ilə heç vaxt barışmayacağını da dünyaya nümayiş etdirdi.**



# "4 günlük müharibə": işğala sonun başlanğıcı

## Atəşkəs dövründə düşmənə ilk ciddi hərbi zərbənin vurulmasından 1 il ötür; böyük güclər təcavüzkarı sülhə məcbur etməyə niyə tələsmir? **Alman politoloq:** "Ermənistan Rusiyanın təklifindən ona görə imtina edir ki..."

Azərbaycan prezidenti İlham Əliyevin aprel hadisələrinin ildönümü ilə bağlı bir qrup hərbçi ilə görüşündə dediyi kimi, həmin əməliyyatlar zamanı ordumuz yalnız öz arsenalındakı silahların cüzi hissəsindən istifadə edib. Ölkə başçısı çıxışında işğalçı tərəfə və onun havadarlarına başqa mesajlar da göndərdi ki, bu da yenə Azərbaycanın Qarabağ məsələsində hansı mövqedə olduğunu və onun iradəsini ortaya qoyur. Nəhayət, keçən ilin aprel olaylarından düzgün nəticə çıxarılmazsa, münaqişə zonasında daha böyük hərbi toqquşmanın qaçılmaz olacağının anonsu verilmiş oldu.

Bu xəbərdarlıqlar, təbii ki, ən əvvəl işğalçı Ermənistana ünvanlanıb. Əfsus ki, İrəvan rəsmiləri baş verənlərdən yanlış nəticə çıxardılar, Dağlıq Qarabağ məsələsində konstruktiv mövqe tutmaq əvəzinə, daha barışmaz mövqe sərgiləməyə başladılar. Deməli, yaxın tarixdən dərs götürməyənlər bu dərsi bir daha keçməli, yaşamalı olacaqlar.

*****

"Prezident hərbçilərlə görüşündə bir daha göstərdi ki, Dağlıq Qarabağ məsələsi sırf Azərbaycanın daxili işidir və bu məsələyə heç kim müdaxilə edə bilməz". Bu sözləri Axar.az-a ölkə başçısının görüşündəki nitqini şərh edən sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloq vurğulayıb ki, prezidentin çıxışı həqiqəti əks etdirir: "Ölkə başçısı bildirdi ki, Qarabağ problemi beynəlxalq hüquq normalarına uyğun həll edilənədək Azərbaycan məsələni öz nəzarəti altında saxlayacaq. Prezident bununla bir daha vurğuladı ki, Qarabağ məsələsi sırf Azərbaycanın daxili işidir və bu məsələyə heç kim müdaxilə edə bilməz. Lavrovun Ermənistanı təcavüzkar adlandırmaq əvəzinə, Dağlıq Qarabağın Azərbaycanın daxili iş olmadığı ilə bağlı işlətdiyi ifadələr neoimperiya siyasətinin təzahürüdür. Ancaq Azərbaycanı heç bir təhdid qorxuda bilməz. Prezidentin son çıxışdakı ən önəmli mühüm mesaj o idi ki, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bütün variantlardan istifadə edəcək".

Politoloq hesab edir ki, Ermənistan sülh danışıqları prosesini pozmağa çalışsa da, prezident məsələnin sülh yolu ilə həllinin perspektivinə inamla baxdığını nümayiş etdirib: "Yəni Ermənistan prosesə maneçilik törətməyə davam edərsə, məsələnin həlli ilə bağlı yollar aramaq Azərbaycanın öz siyasi iradəsindən asılı olacaq və bu da milli maraqlarımıza uyğun şəkildə özünü göstərəcək. Zənnimcə, bu, birbaşa Sərkisyanın "İsgəndər"lərlə bağlı bəyanatlarına bir cavab idi".

"Aprel döyüşləri bizim böyük tarixi qələbəmiz, Ermənistanın isə həm siyasi, həm iqtisadi, həm də psixoloji cəhətdən məğlubiyyətidir. Həmin döyüşlərədək Ermənistandakı siyasi rejimi tərəfindən belə bir mif yaradılmışdı ki, işğalçı dövlətin ordusu və onların yaratdığı istehkamlar keçilməzdir. Lakin aprel döyüşləri bunun sadəcə mif olduğunu sübuta yetirdi".

Bu fikri isə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Mübariz Qurbanlı deyib. Qurbanlı bildirib ki, bu döyüşlər zamanı Azərbaycanın şanlı ordusu ermənilərə böyük dərs verib. Eyni zamanda ordumuzun 2016-cı il aprelin 2-dən 5-dək davam edən uğurlu əks-hücum əməliyyatları ölkəmizə yüksək hərbi və siyasi üstünlüklər qazandırıb.

"Azərbaycan xalqı ermənilərə və bütün dünyaya necə hərbi qüvvəyə malik olduğunu, ordumuzun fiziki və mənəvi gücünü nümayiş etdirdi" deyən M.Qurbanlı qeyd edib ki, Azərbaycan prezidentinin aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə keçirdiyi görüşdə də qeyd etdiyi kimi, aprel döyüşləri demək olar Ermənistanın ideoloji əsaslarını dağıdıb, Ermənistan rəhbərliyi aprel döyüşləri zamanı özlərini tam şəkildə ifşa edib: "Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Həmçinin siyasi baxımdan düşmən bir daha şahid oldu ki, Azərbaycan əzəli torpaqlarını qısa müddət ərzində geri qaytarmağa qadirdir".




*****

Əlbəttə, nə qədər deyilsə də ki, Qarabağ probleminin hərbi həll yolu yoxdur, hərbi güc amili məsələnin çözümündə mühüm faktor olaraq qalır. Böyük dağıntılar və canlı itkilər vəd edən müharibədən isə qaçmaq, ixtilafı dinc vasitələrlə yoluna qoymaq, silahlanmaya sərf edilən böyük pulları iqtisadiyyata, insanların dolanışığını yaxşılaşdırmağa yönəltmək də olar, yetər ki, işğalçı tərəf, onu gizli-açıq himayə edənlər səmimi şəkildə konfliktin həllini arzulasınlar.

Təəssüf ki, hələlik bu yöndə ciddi dinamika, tərpəniş müşahidə edilmir. Yalnız ümumi, populist, növbətçi bəyanatlar eşidirik ki, bütün bunlar da "yükü yerindən tərpətmək" üçün kifayət deyil. Kifayət eləsəydi, 23 illik atəşkəs dönəmində nəticəsini görərdik. Son olaraq, ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona ötən ay etdikləri səfər də hansısa diplomatik təşəbbüslə yadda qalmadı.

Hərçənd, bu arada həmsədr dövlətlərdən biri olan ABŞ tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etmək üçün səylər göstərdiyi barədə xəbərlər yayılıb. Bu haqda informasiyanı erməni mənbələrindən biri yayıb. Mənbənin iddiasına görə, hazırda yeni görüş hazırlanır.

Lakin daha bir görüş xətrinə görüşə ehtiyac varmı, əgər status-kvo dəyişməyəcəksə? Status-kvonun saxlanması isə ən çox işğalçı Ermənistanın maraqlarına cavab verir. Çünki erməni tərəfi ümid edir ki, işğal rejiminin uzanması gec-tez Qarabağ konflikti zonasında formalaşmış de-fakto sərhədləri de-yureyə çevirə bilər.

Azərbaycan şəksiz ki, bunu yaxşı bilir və əlbəttə ki, işğalçı tərəfin planlarını pozmaq üçün gərəkənləri edir, edəcək. Ötən ilin aprelində düşmənin hərbi fiaskosu ilə bitmiş lokal əməliyyatlar, təmas xəttində qarşıdurmanı istisna edən yeni nəzarət mexanizmlərinin yaradılması təklifindən rəsmi Bakının imtinası ən əvvəl buna hesablanıb.

*****

Yaranmış durumla bağlı xarici analitiklərin də öz yanaşmaları var. Məsələn, Musavat.com-un məlumatına görə, alman politoloq Uve Xalbax 168.am erməni nəşrinə açıqlamasında problemin həll yolları ilə bağlı Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqland və Rusiyanın xarici işlər naziri Segey Lavrovun son bəyanatlarını şərh edərkən deyib: "Belə təəssürat yaranır ki, Ermənistan Rusiyanın təklifinə bəzi qeyd-əlavələrlə yanaşır. Bu səbəbdən də İrəvan təmas xəttində nəzarət mexanizmlərinin tətbiqinə xüsusi vurğu salır - hansı mexanizmlər ki, Azərbaycan onlardan imtina edir. Çünki Bakı dərhal anlaşma üçün danışıqlara keçməyin tərəfdarıdır. Buna Azərbaycan belə görünür, etiraz eləmir. Əliyevin Dağlıq Qarabağa muxtariyyət verilməsi və təzyiqlərdən danışması buna əminlik yaradır".

Alman ekspert bu xüsusda Azərbaycanın Avrasiya Birliyinə qoşulması ilə bağlı Lavrovun son açıqlamasını da şərh edib. "Məlumdur ki, Azərbaycanda bəzi dairələr Moskva ilə danışıqlarda bu məsələni böyütmək istəyir ki, Qarabağ nizamlanmasında Rusiyanın dəstəyinə nail olunsun. Ona görə də istisna deyil ki, Ermənistan "Qarabağ bazarlığı"nın mümkün detallarını nəzərə alaraq, Rusiya təklifi ətrafında danışıqlar aparmaqdan imtina edir", - deyə mütəxəssis qeyd edib.

Ancaq bir şeyi əminliklə söyləmək olar ki, Kreml əgər həqiqətən Qarabağ konfliktinin həllini istəsə, buna qısa müddətdə nail ola bilər. Sadə səbəbə: işğalçı Ermənistan üzərində əsas söz sahibi kimi Qarabağ məsələsinin açarı Moskvadadır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 67 (6681) 3 aprel 2017

# "Qadın paltarı geyinməkdə bir problem görmürəm"

## Aktyor Taleh Yuzbəyov: "Hansısa məsələ məni narahat edəndə status yazmıram, video çəkirəm"

**Bizi bizə göstərərək qəfil məşhurlaşan aktyor çoxları üçün maraqlıdır. Əslində çəkdiyi videolar cəmiyyətdə baş verən hadisələri, müxtəlif peşə sahələrində çalışan insanların davranışlarını güzgü kimi özündə əks etdirir. Elə özü də Şekspirin məşhur "Aktyor dövrünün güzgüsüdür" ifadəsini özünə şüar seçib. Söhbət, aktyor Taleh Yuzbəyovdan gedir.**

Əslində aktyor uzun müddət teatrda çalışıb, reklamlarda çəkilib, filmlərdə rol alıb, amma onu ilk olaraq "Ceyhun" videosu ilə tanıdıq. Sonradan isə digər çəkdiyi və çəkildiyi videolar Yuzbəyovu daha da məşhurlaşdırdı.

Hər kəs ondan danışır, videolarını paylaşır və təriflər yağdırırdı. Bu proses indi də davam edir. Bunun sirri nədir? İnsanların videolarda özünü görməsi, yoxsa xüsusi bir yenilik? Əslində suallarımız daha çoxdur. Bu səbəbdən T.Yuzbəyovla görüşdük və suallarımızı onun özünə ünvanladıq.

*- Reklamlara çəkilmisiniz, "Oğlan Evi" filmində rolunuz var idi və s. Bir dəfə özünüz çəkildiyiniz videoları paylaşmışdınız. Amma sizi çəkdiyin qısa videolardan tanıdılar. Bunun səbəbi nədir?*

- Məncə, reklamlarda üzlər çox yadda qalmır. 10-a yaxın reklama çəkilmişəm və ancaq dostların yadında qalmışam. Reklam anidir, bir iki saniyə görünürsən. Bəlkə də, yadda qalmamağa səbəb budur. Oğlan evində də rol almışam. Rolum ikinci dərəcəli idi. Diqqət edən də, etməyən də olmuşdu. Videolar çəkəndən sonra üzüm tanındı. Yaddaşlarda qalmağa başladım.

*- Video çəkməyə necə qərar verdiniz? Bu ideya necə yarandı?*

- 14 fevralla bağlı videonu marağa çəkmişdim, sonra internetdə yayıldı, diqqət gördü. Davamlı video çəkmək məqsədim yox idi. Həmin dövrdə video çəkənlər çox deyildi. Video çəkib "Youtube" kanalına yerləşdirdim. Oradan saytlarda yayıldı və insanların diqqətini çəkdi. İkinci videoma olan maraq da gözlənilməz oldu. İki minlik səhifə 1 həftəyə 6000 oldu. Ondan sonra məndə video çəkməyə maraq yarandı. Çünki insanların marağı və bəyənmələri mənə stimul verdi. Daha sonra çəkdiyim videolar gah uğurlu, gah da uğursuz oldu. Belə-belə öz yolumu tapdım. Daha hansısa məsələ məni narahat edəndə status yazmıram, video çəkirəm.

*- Bu rəğbət, izləyici, məşhurluq həyatınızda nəyisə dəyişdimi?*

- Böyük dəyişiklik olmadı. Əsas o oldu ki, məşhurluq qazandım. 2009-cu ildə universiteti qurtarmışam, o vaxtdan bu sahədəyəm. Aktyor kimi fəaliyyət göstərmişəm, reklamlara çəkilmişəm, amma tanınmamışam. Videolardan sonra insanların mənə marağı atdı. Mənim məqsədim vine çəkmək deyil. Mənə maraqlı gələn, narahat edən məsələləri ekranlaşdırıram.



*- Videolar sizə qazanc necə gətirdimi?*

- Deməzdim ki, çox qazanc əldə etmişəm. İşbirliyi təklifləri gəlir. Artıq insanlar üçün maraqlı simayam, onlar məni öz işlərində görmək istəyirlər. Vaxtım yoxdur ki, iş təkliflərini dəyərləndirim.

*- Videolar üçün ideyalar necə yaranır?*

- İki cür olur. Biri var, ani gələn ideya, biri də var, oturub düşündüklərim. Məsələn: qazın qiyməti qalxır. Bu səni narahat edir, düşünüb video çəkirsən. Bir də var hansısa hadisə və ya ani yadına düşən olay yeni ideyanın yaranmasına səbəb olur. Jurnalist ideyası əsəbdən yaranmışdı. Mən çalışıram videolarımda qərəz olmasın, məsələyə obyektiv yanaşım. Jurnalist videosunda isə subyektiv idim. Çünki məsələ birbaşa mənə toxunmuşdu. Çox əsəbi idim. Düşünün ki, mənə bir xanım yazır ki, "Siz reklamlara neçəyə çəkilirsiniz?" Mən normalda bununla bağlı inboxda cavab vermirəm. Nəyəsə görə cavab verdim. Sonra baxdım ki, gedib bundan xəbər yazıb. Mənə demədən, icazə almadan. Sualı nə üçün verdiyini demədən. Dindar videolara görə elə bilirlər ki, ateistəm. Əslində elə deyil. Mən sadəcə, bu işin içindəyəm, gördüyümü çəkirəm. Çalışıram üçüncü tərəf olum, məsələyə kənardan baxım.



### "Dindən anlayışı olmayan şəxslər deyir ki, dinə sataşmısan"

*- Videolara görə tənqid olunursunuz, sizə zəng edib irad bildirirlər?*

- O şəraiti yaratmamışam ki, kimsə zəng edib irad bildirsin. Bəzən isə mesaj qutuma yazırlar. Hər insan başqa sahə insanına gülməyi sevir. Pul videolarını isə hamı bəyənir. Kimsə videolara görə məni öldürəsi deyil ki... Jurnalist videosundan sonra mənə media mənsubları statuslar həsr etmişdi. Videoda əsl sözü səhv getmişdi. Onu tənqid etmişdilər. Dindar videom da çox tənqid olundu, insanlar yanlış anlamışdı. Mənə dedilər ki, dini ələ salırsan. Deyirəm ki, din sənin üçün nədir? Dindən anlayışı olmayan şəxslər deyir ki, dinə sataşmısan. Din Allahdır, peyğəmbərdir, Qurandır. Deyirlər başqalarına gücün çatmır, dinə dil uzadırsınız. Mən elə mövzuda videolar çəkmişəm ki, hər kəs onu çəkə bilməz. Pampersin qiyməti qalxırsa, bu, birbaşa mənim cibimə təsir edir. Niyə bu haqda telefonla çəkəndə alınır. Düzdür, elə videolar var ki, onun üçün peşəkar çəkiliş lazımdır. O ayrı məsələdir. Məncə, peşəkar çəkilmiş video önə getmir. Sosial şəbəkələr üçün ən yaxşısı videonu telefonla çəkməkdir. Telefonla çəkilən videolar daha yaxşıdır. Nə vaxtsa, film çəkmək istəsəm, kamera ilə çəkəcəyəm.

*- Bəzi aktyorlar, vinerlər deyir ki, qadın paltarı geyinmərəm, yaylıq bağlamaram. Bu, onlar üçün tabudur. Sizin üçün tabu nəsə varmı?*

- Qadın paltarı geyinməkdə bir problem görmürəm. Özünə aktyor deyirsənsə, rolun tələb edirsə, geyinməlisən. Yaşar Nuridən, Rafael Dadaşovdan yaxşı aktyor olmayacağıq ki. Dünyanın məşhur aktyorları qadın obrazı canlandırıblar. Məncə, bu düşüncələr mental dəyərlərdən yaranır. Məqsədin özünü arvad kimi göstərmək deyilsə, qadın paltarı geyinməkdə problem yoxdur. Mənim üçün müəyyən çərçivələr var. Amma onlar haqda düşünməmişəm. çəkməyim? Mən müxalif deyiləm. Heç kim deyə bilməz ki, hansısa müxalifətçi qrupda olmuşam. Müxalifət də, iqtidar da mənim üçün eynidir. Mən vətəndaşam.

*- İzləyicilər bir müddət video keyfiyyətinə yox, çəkilən mövzuya fikir verirlər. Sonra isə artıq tamaşaçılar daha keyfiyyətli iş istəyir. Telefonla çəkilən videolar tənqid edilir. Sizin üçün durum necədir?*

- Studiyam olsa da, telefonla çəkməyə davam edəcəyəm. Məncə o səmimiyyət şəm. Gərək həmin situasiyaya düşüm və o anda qərar verim ki, bu mənim üçün tabudur, ya yox. Yəqin həssas mövzular... Onlarla bağlı çəkəndə ehtiyatlı davranacağam.

*- Mental dəyərlərdən söz düşmüşkən, neçə gündür ki, metroda iki gəncin səmimi olması müzakirə olunur. Jurnalistin onlara təpik atması, onların öpüşməsi və ya buna cəhd etməsi məsələsi müzakirə edildi. İnsanlar iki hissəyə bölündü. Sizin buna münasibətiniz necədir?*

- Mənə görə, insan metroda öpüşməz. Bu, mənim baxışımdır. Öpüşmək intim şeydir, insanların içində öpüşmək yaxşı deyil. Əgər insanın məqsədi öpüşməkdirsə, haradasa öpüşəcək. Biz də öpüşmüşük, amma metronun içində öpüşməmişik. Bunun böyük tərbiyəsizlik olduğunu düşünmürəm, amma ictimai yerdə yaşlı var, uşaq var, xanımlar var. Mən bunun tərəfdarı deyiləm. Amma öpüşən yeniyetmədirsə, sən də yekə kişisənsə və onları təpikləyirsənsə, bu, daha bərbad bir şeydir. O səhv edibsə, sən ondan da böyük səhv hərəkət etmisən. Üstəlik, yanında uşaq var. Sən bu hərəkətlə uşağına necə nümunə ola bilərsən?

Mən aqressiyanın tərəfdarı deyiləm. Mən olsaydım, durub yerimi dəyişərdim. Yekə kişinin durub qışqırmağı, təpik atması doğru deyil. O gəncin hələ sənə gücü çatmır, qızın yanında da utandı. Amma böyüyəcək və gücü çatan hala gələcək. O zaman özündən böyüyə hörmət etməyəcək. Gənclərlə böyük kimi davranmaq, məsləhət vermək lazımdır. Küçədə mini ətəkli qız görəndə baxa da bilərəm, baxmaya da. Bu, mənim seçimimdir. Amma mən ona deyə bilmərəm ki, geyinmə. Qadağalar hər zaman maraq yaradıb. Bu gün öpüşməyi qadağan edirsən, flaşmob keçirirlər. Yaxşı dəyərlərimizi qoruyaq, amma elə qoruyaq ki, heç kim inciməsin.

❑ **Məhəmməd TÜRKMƏN**



## Azərbaycanda ictimai qınaq doğurmuş proqramın fəaliyyəti dayandırıldı

**Bir neçə gündür sosial şəbəkələrdə və insanlar arasında ən çox müzakirə olunan "Mage" proqramının Azərbaycanda istifadəsinə qadağa qoyulub. Qafqazinfo xəbər verir ki, sözügedən proqramla android telefonlarda istənilən mobil nömrənin sahibini tapmaq mümkün idi.**

Belə ki, android istifadəçiləri pleystordan sözügedən proqramı yükləyirdilər. İstədikləri şəxsin nömrəsini yazıb, kimliyini öyrənə bilirdilər. Dünəndən etibarən isə proqram Azərbaycan ərazisində fəaliyyətini dayandırıb.

**Son vaxtlar - xüsusi ilə mal və qoyun ətinin bahalaşmasından sonra at əti satışı ilə məşğul olan işbazlar yenidən fəallaşıb. Bu günlərdə Kürdəmir rayonunda at əti satmaq istəyən şəxs saxlanılıb.**

# Xəbərimiz olmadan yediyimiz at və eşşək ətləri...

## Məsuliyyəti kim(lər) daşıyır? **Eyyub Hüseynov:** “Son 5 ildə Azərbaycan mətbəxi üçün ənənəvi olmayan ətlərin əhaliyə satılması prosesi gedir”



Xınıslı kənd sakini Anar Bağırov özünə məxsus həyətyanı sahədə iki atı kəsərək Kürdəmir rayonunun Yenikənd kənd sakini Tahir Kərimova məxsus “Mercedes” markalı avtomobillə satmağa apararkən polis əməkdaşları tərəfindən tutulub.

Rayon Baytarlıq Xidmətinin əməkdaşları müsadirə olunan at ətindən müayinə üçün nümunə götürüblər. Qeyd edək ki, bu fakt Anar Bağırovun ilk qanunsuz əməli deyil. Belə ki, o bundan əvvəl də at əti satışına görə saxlanılıb. Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti (DBNX) Kürdəmirdə at əti aşkarlanması faktı ilə bağlı məlumat yayıb.

Xidmətin mətbuat katibi Yolçu Xanvəlinin APA-ya verdiyi məlumata görə, martın 31-də alınmış məlumat əsasında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin Kürdəmir Rayon Baytarlıq İdarəsinin mütəxəssisləri, Daxili İşlər Nazirliyinin Kürdəmir Rayon Polis Şöbəsinin əməkdaşlarının iştirakı ilə qida təhlükəsizliyinin qorunması, insan həyat və sağlamlığına təhlükə törədən, mənşəyi məlum olmayan heyvandarlıq məhsullarının satışının qarşısını almaq məqsədi ilə əməliyyat keçirilib. Kürdəmir rayonu, Xınıslı kənd sakini Bağırov Anar Ağanəsib oğluna məxsus həyətə baxış keçirərkən oradakı 10-VH-988 dövlət nömrə nişanlı, “Mercedes” markalı minik avtomobilinin yük yerində antisanitar vəziyyətdə, polietilen torbalara yığılmış, satış üçün nəzərdə tutulan məhsul aşkarlanıb.

Analoji fakt Cəlilabad rayonunda da qeydə alınıb.

Ümumiyyətlə, son illərdə əhalinin yoxsulluq səviyyəsinin daha da artması, ət və ət məhsullarının həddindən artıq bahalaşması, ucuz ətə tələbatın artması belə işbazların meydana çıxmasına şərait yaradıb. Mal əti ilə bağlı ölkədə qıtlıq və bahalıq yaşandığı üçün mənşəyi məlum olmayan ətlər sallaqxanalara gətirilərək mal əti adı altında əhaliyə sırınır. Qanunla at ətinin satışı bəlli olmasa bunun mal əti adı ilə aldadaraq alıcılara satılması isə istehlakçıların hüquqlarını pozur.

“Yeni Müsavat”a açıqlamasında bu məsələyə münasibət bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, son 5 ildə Azərbaycan mətbəxi üçün ənənəvi olmayan ətlərin əhaliyə satılması prosesi gedir: “Bəzi mütəxəssislər bildirirlər ki, guya at, eşşək ətini əhaliyə satmaq olar. Bir şərtlə ki, mənşəyi üstündə yazılsın. 1962-ci ildə sovet məmurları həyətində uzunqulaq olan insanlara çox böyük cərimələr qoyurdular. Gecələr müfəttişlər həyətləri gəzir, kimin həyətində uzunqulaq görürdülərsə onu cərimə edirdilər. Ona görə də çöllərdə böyük vəhşi uzunqulaq sürüləri əmələ gəlirdi. Əhali kütləvi şəkildə uzunqulaqlardan imtina edirdi. Hətta o zaman belə uzunqulaq əti yemək söhbəti yox idi. 1982-ci ildə sovet ittifaqında ərzaq proqramı qəbul olundu. Kənd yerlərində toylarda heyvan kəsmək qadağan olundu. O zaman belə insanlar menyularına at və ya eşşək ətini yaxın qoymurdular. O anlayış yox idi. Son illərdə isə yeni fikirlər meydana gəlir ki, atı kəsmək olar, ətini yemək olar. Bu cür anormal vəziyyət hökm sürür. Dövlət orqanları arasında vahid fikir yoxdur. Baytarlıq idarəsi qeyd edir ki, at və eşşək ətini satmaq olar, bir şərtlə ki, adı yazılsın. Daxili İşlər Nazirliyi tərəfindən isə uğurlu işlər aparılır. Keçən ilin aprel və may aylarında DİN xeyli miqdarda qeyri-ənənəvi ət satanları ifşa etdi. Ölkədə qida təhlükəsizliyini tənzimləyən bir qanunun olmadığı, at və uzunqulaqların baytar nəzarətindən tamamən kənarda qaldığı bir şəraitdə, onların ciddi heyvan xəstəliklərinin daşıyıcısı olma ehtimalları var. Odur ki, bu cür ətlərin əhaliyə satılması yolverilməzdir”.

Eyyub Hüseynovun sözlərinə görə, əgər bu ətlər satışa çıxarılırsa, deməli buna tələbat və sifariş var: “Təəssüflər olsun ki, bu cür ətlərin sifarişçiləri də var. Əgər sifarişçi olmasa bu ətlərə bazara çıxarılmazdı. Bəs, hüquq-mühafizə orqanları bu ətləri aşkarlayanda sifarişçini nə üçün axtarmırlar. Nə üçün bu sahədə istintaq aparılmır? Hökumət orqanları bu işlə məşğul olanlara cəza vermir, yüksək məbləğdə cərimə etmir. Ölkədə qida təhlükəsizliyinə dair qanunun olmadığı şəraitdə bu məsələnin nəzarətdə saxlanılması labüddür. Çünki qanun olmayan yerdə mütləq şəkildə cinayət olur. Təsadüfi deyil ki, bu ilin fevral ayında ölkə başçısı Qida Təhlükəsizliyi Agentliyinin yaradılması barədə sərəncam imzaladı. Bu sərəncam 2018-ci ildən qüvvəyə minəcək və agentlik yaradılacaq. Çox təəssüflər olsun ki, bu agentlik 20 ildir bu işlə məşğul olan ictimai qurumları özünə yaxın qoymur”.

E.Hüseynovun fikrincə, ölmüş at və eşşək əti satan insanlar mütləq cinayət məsuliyyətinə cəlb olunmalıdır: “Qanunvericilikdə bu kimi hallara qarşı yalnız cərimə nəzərdə tutulub. Lakin bu cəzalar sərtləşdirilməlidir. Çünki bu yolla heyvan xəstəliklərinin insana keçməsi hadisəsi baş verə bilər. Bu cür hadisələr artıq insanların ət məhsullarına olan inamını da öldürüb. Əhali hazır ət məhsullarına inanmır, gözü ilə gördüyünü almaq istəyir. Ona görə də paytaxtda sallaqxanalarda mal kəsimi həyata keçirilir. Halbuki, duyanın heç bir paytaxt şəhərində belə biabırçılıq yoxdur. Baytarlar və qəssablar insanların inamını qazanmalıdırlar. Bu anormal haldır ki, əhali dükanlardan deyil, qəssablardan - gözləri ilə gördükləri əti almağa üstünlük verirlər. Ancaq o da istisna olunmur ki, gözləri ilə gördükləri ətlərin də bir hissəsi at və eşşək ətləri ola bilər.

Bu kimi halların ayaq açmasının bir səbəbi də sahibkarlıq obyektlərində həyata keçirilən yoxlamaların məhdudlaşmasıdır. Ölkə başçısı bu qərarı verərkən rüşvətxorluq hallarının azalacağını nəzərdə tutmuşdu. Lakin bu gün dövlət qurumları gizli yoxlamalar da aparırlar gizli şəkildə rüşvət də alırlar. Qiymətlərin aşağı düşməməsi də bir daha bunu sübut edir. Digər tərəfdən mal və xidmətlərin keyfiyyət problemləri artır".

Tibb elmləri doktoru Adil Qeybulla isə hesab edir ki, sağlam at əti insan səhhətində heç bir fəsada yol açmaz: “At ətini qida rasionuna daxil etmək olar. Ancaq Azərbaycan xalqının mətbəxində bu heç zaman istifadə olunmayıb. Çünki hər bir regionun öz qida rasionu var. Yəni, bizim ölkənin insanları at əti yeməyə öyrəşməyiblər, orqanizmimiz buna öyrənməyib. Ona görə də, at əti yemək həzm prosesində hər hansı bir problem yarada bilər. Ancaq müəyyən bir adaptasiyadan sonra buna da öyrəşmək olar. At ətinin tərkibi də zülaldır, bu baxımdan geniş şəkildə istifadə olunur. Ayrı-ayrı ətlərdə bioloji maddələrin, proteinin miqdarı müxtəlif ola bilər. Çöl heyvanları ilə ev heyvanlarının ətinin tərkibi fərqli olur. Daima çöldə yaşayan heyvanların əti bərk ola bilir. Ancaq daimi qaçırlar, hərəkət edirlər, maddələr mübadiləsi düzgün gedir. Bu baxımdan daha təmiz sayılır. İstənilən halda at ətinin orqanizm üçün faydası onun zülalıdır. Ancaq ən əsası odur ki, heyvan sağlam olsun. Qanında hər hansı heyvan xəstəlikləri, müxtəlif infeksiyalar olmasın”.

❑ Nərgiz LİFTİYEVA

# Turist görəndə çatıda ilan görənlər...



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Şəhərə çıxıb, hər dəfə yanından keçən xarici turisti görəndə ilan vurmuşa dönən, “bunların əlindən də bezara gəldik...” deyə ufuldayanları görəndə mən də ilan vurmuşa dönürəm. Tamam, bir neçə il əvvəl ölkədə keçirilən beynəlxalq musiqi, idman yarışlarına görə əcnəbilər gələndə bilirdik ki, bunlar “real turistlər” deyil. Yəni, onların heç biri öz ölkələrində turizm agentliklərinə gedib, istirahət üçün ölkə seçəndə xəritənin üstündə Azərbaycanın adını göstərməyib. Bəli, yarış idi, gəlmişdilər, pullarını da alıb gedəcəkdilər. Bəs indi? Ərəbi, iranlısı, rusu, farsı, cənublu soydaşımızı görəndə niyə əsəbləriniz tarıma çəkilir?**

Mən bayram günlərində bir neçə dəfə İçərişəhərdə, eləcə də adına Mall deyilən o qocaman “alver həbsxanalarında” oldum. Bir an adama elə gəlirdi ki, İrana gedib... Çünki bir neçə dəqiqə sakit dayanıb, ətrafı dinləyəndə gələn danışıqlardan belə qənaətə gəlirdin. Adamlar mağazalardan əlləri-qolları dolu torbalarla çıxırdılar. Brend mağazalar onların gəlişi ilə dolmuşdu. Səbəbi bilinməz: bəlkə ölkələrində bu malları tapa bilmirdilər, bəlkə daha ucuza satılırdı bizdə, bəlkə də...? Sırf turist psixologiyası da ola bilərdi. Məsələn belə: Ölkədən çıxmışamsa, qayıdanda əlim dolu olsun, qohum-əqrəbaya nəsə alım. Variant nə olursa olsun, nəticə önəmli deyilmi? Alver canlanıbmı? Tamam, canlanıb. O zaman bu turşuyan üzlər niyə?

Kafe və restoranlarda da eyni vəziyyətdir. Bir axşam çaşıb, ortabab restoran-kafelərdən birində oturmaq istəsən, masaların 90 faizində turist görürsən. Özü də durum fərqlidir: iranlılar, ərəblər gələndə geniş külfətlə gəlirlər. Bir ailə 15 nəfər deməkdir az qala. İndi siz onların yemək xərclərini, otel xərclərini, taksi xərclərini və sairi düşünün... Görün neçə sektor qazanır? Tanış bir restoran sahibi var. Dostlardan birinə deyib ki, turist axını başlayana qədər işçilərin maaşını verə bilmirmiş, indi bir az düzə çıxıblar. Çünki gələn turist ailəlikcə gəlir, bahalı yeməklər sifariş verir, ofisianta da yaxşı çay pulu qoyub gedir. Yenə soruşuram: bu turşuyan üzlər niyə? Konkret siz qazanmırsız deyə? O qazanan sektorda qohumlarınız yoxdur deyə? Səbəb nədir?

Əgər cavab yoxdursa mən deyim. Gəlin etiraf edək ki, bu, kasıblıq kompleksinin bir nəticəsidir. Bəli, biz o İçərişəhərdəki restoranlarda oturub nahar edə bilmirik, doğru. Onların fotosunu ancaq İnstaqramda varlı balaların profilində görürük. Səhər yeməyini bir “təndirdə”, günortanı bir “şahın sarayında”, axşamı da Qız Qalasına baxan bir restoranda edirlər. Bilirsiz ki, bizim üç öyün İçərişəhərdəki restoranlarda olmağımız bir aylıq məvacibimizin havaya uçmasıdır. Onların əl-qolu dolu çıxdıqları brend mağazalara biz ildə heç bir dəfə də yaxın düşə bilmərik. Amma bu, o demək deyil ki, turist bunu etməməlidir. Adı üstündə - turist. Onlar səyahət etmək, yeni dünyalar görmək üçün pul yığan və ya qazancını elə gəzib-dolaşmağa həsr edən insanlardır. Biz azərbaycanlılar evimizin üstünü bir mərtəbə də artırıb, Sovet maşınımızı xariciyə dəyişmək üçün illərlə pul yığanda o, balaca bir apartman dairəsindən özünü dünyaya atır. Pulunu yığır, səyahət edəcəyi ölkəni seçir və yallahh... Yəni, seçimlər, şərtlər və həyata baxış... Aqressiyaya gərək yox, sadəcə seçimlərə hörmət gərək.

Və mümkünsə şapalaqla da üz qızartmayaq. Biz özümüz bu cür səfalı təbiəti, gözəl meşəsi, bulağı, çayları, dənizi.... olan yerdə niyə istirahət edə bilmirik, niyə buna şərait yaradılmır? Bu suala içinizdə cavab verəndə anlayacaqsız ki, Con, Tomas, Ceysi, Anna... niyə Bakını, Azərbaycanı seçmir istirahət üçün? Xarici ölkələrə bircə dəfə ayaq basmış birisi yüz faiz bilir ki, avropalını Bakının Dubayvari görüntüsü, dəbdəbəsi ilə ancaq pis mənada təəccübləndirmək olar. Onlar bundan şoka girirlər, doğru. Parklarda yaşıllıq yerinə mərməri görəndə, bulvarlarda yaşıllığa girmək istəyənlərin üstünə polis çəmkirəndə, 20 qəpiklik suyun mərkəzdə 1 manata satıldığını eşidəndə, bəzi insanların hələ də piyada keçidi olduğu halda keçi kimi maşınların üstünə hoppanmasını müşahidə edəndə... bəli, bunlar turistə də təəccüblüdür. Ona görə də Bakını avropalının səyahət üçün seçməməsi normaldır. Bəli, bizi turizm ölkəsi olaraq iranlı seçir, ərəb seçir, bədəbəddə gözü Putinin anormallıqlarını görmüş rus seçir. Necə deyərlər, hər malın öz alıcısı. Bizim də turistimiz özümüzə uyğun...

Odu ki, məşhur amerikan mahnısında deyilən kimi, dont worry be happy... (narahat olma, xoşbəxt ol) Bu günə qədər turist axınından ziyan görən olmayıb, sakitləşin.

YENİ MÜSAVAT
N 67 (6681) 3 aprel 2017

# Yaşlı məşhurların gənc sevgililəri

## Psixoloqlara görə, yaşlı kişi və qadınların gənc sevgilisi olması arzusu yaşlanmaq qorxusundan irəli gəlir...

**Ötən əsrin əvvəllərində ən inkişaf etmiş ölkələrdə belə yaşlı kişinin və yaxud qadının özündən çox kiçik sevgilisi olması o qədər də xoş qarşılanmırdı. Lakin illər keçdikcə zənginlərin və ya yaşlı məşhurların öz övladları, hətta nəvələri yaşda sevgililəri ilə birlikdə olması, arada yaş fərqinin getdikcə daha da böyüməsi adiləşməyə başlayır.**









Artıq bunun adi insanlar arasında da geniş yayıldığının şahidi oluruq. Psixoloqların fikrincə, yaşlı kişi və qadınların (xüsusən də məşhurların) gənc sevgilisi olması arzusu yaşlılıq qorxusundan irəli gəlir. Bəs hansı məşhurlar gənc sevgililəri ilə də məşhurdur? Musavat.com onlardan bir neçəsini təqdim edir:

77 yaşlı əfsanəvi aktyor Al Paçino 40 yaş özündən gənc olan sevgilisi Lyusila Sola ilə yaşayır. Cütlük artıq 7 ildən çoxdur ki, görüşür. Ötən illərdə aktyor ona evlənmək təklifi edəcəyi ilə bağlı açıqlamalar vermişdi: "Mən heç vaxt "heç vaxt" deməmişəm".

Qeyd edək ki, əfsanəvi aktyor bu günədək heç vaxt evlənməyib. Lakin o, 3 övlad atasıdır. Belə ki, aktyorun Cen Tarrant adlı eks-sevgilisindən 27 yaşlı qızı Culi, aktrisa Beverli de Andcelodan əkizləri var.

Məşhur Hollivud ulduzu Nikolas Keyc də bundan əvvəl gənc sevgilisi ilə evlənmişdi. Onun həyat yoldaşı Elis Kim aktyordan 20 yaş kiçik idi. Lakin cütlük 12 illik evlilikdən sonra qalmaqallı şəkildə ayrıldı. İddialara görə, cütlüyün boşanma səbəbi Elis Kimin xəyanəti olub.

67 yaşlı Hollivud ulduzu Riçard Gir də bundan əvvəl özündən 34 yaş kiçik sevgilisi ilə Aleksandra Silvani ilə gündəmə gəlmişdi. Cütlüklərin tezliklə evlənəcəyi deyilsə də, hələ ki bu baş verməyib. Qeyd edək ki, aktyor bundan əvvəl iki dəfə evli olub. Onun birinci evliliyindən 16 yaşlı oğlu var.

Hollivud ulduzları aktirsa Ketrin Zeta Consla və həyat yoldaşı Maykl Duqlas arasında da 25 yaş fərq var.

Siyasət aləmində də məşhurların gənc sevgililəri haqda zaman-zaman mətbuatda məlumatlar yer alır. Məsələn, ötən il 64 yaşlı Rusiya prezidenti Vladimir Putinin 20 yaşlı gənc modellə sevgi yaşadığı barədə məlumat yayılmışdı. Qeyd olunurdu ki, prezidentin yeni sevgilisi Moskva Universitetinin tələbəsi Alisa Xarçevadır. Bu cür məlumatın yayılmasına səbəb isə gənc modelin öz bloq səhifəsində Putinin onun ad gününə hədiyyə aldığını bildirməsi olub.





Dünyanın lider ölkəsinin prezidenti Donald Tramp da arvadı Melani Trampdan 28 yaş böyükdür. Bundan əvvəl isə Tramp iki evlilik yaşayıb.

Türkiyənin məşhur şou-biznes nümayəndələri də tez-tez gənc sevgililəri ilə gündəmə gəlirlər. Məsələn, məşhur müğənni Özcan Dəniz dəfələrlə özündən qat-qat kiçik qızlarla eşq yaşayır. Son olaraq 45 yaşLı müğənninin 20 yaşlı Afra Saraoğlu ilə sevgili olduğu barədə məlumat yayılmışdı. Məşhur türk müğənnisi Hande Yener də ötən il özündən 12 yaş kiçik gənc sevgilisi Cem Şenol ilə nişanlanıb. Qeyd edək ki, müğənninin sevgilisindən bir neçə yaş kiçik oğlu var.

Müğənni Ebru Gündeşin isə həyat yoldaşı Rza Zərrabdan 10 yaş böyük olması hər kəsə məlumdur.

Bəs yerli şou-biznesin yaşlı məşhurları arasında gənc sevgilisi olan varmı?

Qeyd edək ki, yerli məşhurlar bu cür məlumatların yayılmasına çox mühafizəkar yanaşsa da, həm kişi, həm də xanım məşhurların gənc sevgilisi olduğu haqda ara-sıra yazılar dərc olunur. Məsələn, bir neçə il bundan öncə Xalq artisti Niyaməddin Musayevin Rusiyada özündən dəfələrlə gənc olan xanım həmkarı ilə sevgi macərası yaşadığı haqda məlumatlar yayılmışdı. Xalq artistinin gənc həmkarı ilə səmimi fotoları bir müddət sosial şəbəkələrdə və mətbuatda müzakirə mövzusuna çevrilmişdi. Niyaməddin Musayev bir neçə dəfə ailə həyatı quran sənətçilərdəndir. İddialara görə, sənətçi ilk evlliyindən dünyaya gələn övladlarının anasını analıq hüququndan da məhrum edib.

❑ **Xalidə GƏRAY**

**İZRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, (050) 213-88-05 nömrəsinə, d-r Vaiz Səmədova zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



# Qubada faciə: 5-ci dəfə ana olan qadın öldü

**Dünən səhər Qubada ana ölümü faktı qeydə alınıb. Yerli sakin Seyidəliyeva Sevinc Oruc qızı qeysəriyyə əməliyyatı ilə uşaq dünyaya gətirib. Bu, onun beşinci hamiləliyi olub və doğuş normal keçib.**

Əməliyyatdan sonra S.Seyidəliyevayanın damarına "Reopoliqlükin" adlı preparat vurulub. Xəstə buna sərt reaksiya verib, şoka düşüb. Həkimlərin səyinə baxmayaraq, S.Seyidəliyeva həyatını itirib.

Quba Regional Perinatal Mərkəzinin direktoru Şəhla Həsənova APA-ya bildirib ki, doğum zamanı heç bir həkim səhvi olmayıb, bütün prosedur qaydalara əməl olunub: "Sadəcə, xəstə damarına vurulan dərmana sərt reaksiya verib". Qeyd edək ki, uşaq sağdır.

YENİ MÜSAVAT
N 67 (6681) 3 aprel 2017

**Təyyarənin yerindən bir qədər gec tərpənməsi, buludların arasında ikən silkələnməsi, gecikməsi, pilotun "narahat olmayın, amma..." ilə başlayan anonsu belə insanı o dünyanı görüb gəlməyə vadar edir. Bu günlərdə də xəbər lentində bu sayaq informasiyalar yer almışdı. Malayziyada qəza, Almaniyada qəza təhlükəsi...**

# Təyyarəyə minməzdən öncə yüz dəfə düşünün...

## Hansı oturacaqda oturmalı, hansı şirkəti seçməli, qəzaya düşəndə nə etməli? Oturacaq nömrəsi yüksəldikcə yaşama şansı da yüksəlir...



Mövzunun aktuallığını nəzərə alıb, araşdırdıq. Səfər edəndə hansı təyyarələri seçək? Təhlükəsiz olanların siyahısını haradan və necə tapaq?

**Təyyarə qəzaya düşür və itir...**

Ümumən, statistikaya görə, hər səkkiz milyon uçuşdan biri qəza ilə nəticələnir. Yeni təyyarə qəzası əslində çox da yüksək ehtimal sayılmır. Bununla yanaşı, təyyarə qəzası baş verəndə onun itməsi də geniş haldır. Rəsmi versiyalara və qaydalara görə, bir təyyarənin itməsinin səbəblərindən biri onun strukturunda yaranan hansısa problemdir. Bir çox təyyarənin materialı alüminiumdandır və zaman keçdikcə eroziyaya uğrayaraq aşınmalar baş verə bilər.

Digər itmə səbəbi isə pis hava şəraiti ola bilər. Doğrudur, təyyarələr ən pis hava şərtlərinə qarşı uça biləcək formada hazırlanır. Amma tutaq ki, 2009-cu ilin iyununda "Air France"'ın Rio de Jeneyro-Paris uçuşu zamanı Atlantik okeanı üzərindən keçərkən yaxalandığı sərt fırtınalar nəticəsində qəzaya uğraması tipli halların da baş verməsi mümkündür.

Pilotun səhvi variantını da unutmayaq. Məhz bu zaman təyyarə avtomatik olaraq idarəetmədən çıxır və bəzən bunun fərqinə varanda gec olur. Nəticə etibarilə təyyarələr radarlarla əlaqənin kəsildiyi son nöqtədən 5-6 saat uzaqlıqda başqa bir nöqtədə tapıla bilir. Təyyarənin motorlarının sıradan çıxması da onun itməsinə səbəb ola bilər. Və daha bir ehtimal - bombalanma da təyyarənin itməsi səbəbləri sırasında göstərilir. Tarix boyu bəzi təyyarələrin havada ikən partlaması nümunələri mövcuddur.

Qaçırılma ehtimalını da yaddan çıxarmayaq. Əsasən piratlar təyyarələri planlaşdırılan yox, başqa bir aeroporta enməyə məcbur edirsə, bu, qaçırılma sayılır. Bir çox hallarda isə 11 sentyabr nümunəsində olduğu kimi, təyyarənin okeana yönləndirilməsi ehtimalı da mümkündür.

Bilmədiyimiz daha bir səbəb - pilot intiharı. 1990-cı illərdə iki sərnişin təyyarəsinin radarla əlaqəsinin kəsilməsi və daha sonra izsiz itməsinin kökündə pilot intiharının dayandığı qeyd edilir. Təyyarənin yanlışlıqla, hava sahəsini istifadə etdiyi ölkə tərəfindən vurulması da itkin düşmə səbəblərindən biri kimi qeyd olunur.

**Onlarla səfər etmək təhlükəsizdir, çünki...**

Almaniyanın JACDEC (Jet Airliner Crash Data Evaluation Centre) adlı təyyarə qəzalarını araşdıran bürosu Hamburqda ənənəvi "Dünyanın ən etibarlı aviaşirkətlərinin reytinqi"ni təqdim edib. Qeyd edək ki, reytinq 2013-cü ilin nəticələrinə əsasən təşkil olunub.

"Air New Zealand" - Yeni Zellandiyanın milli aviaşirkətidir və əsası 1940-cı ildə qurulub. Aviaşirkət ölkədaxili 27, əcnəbi ölkələrə isə 26 istiqamətdə uçuşlar həyata keçirir. "Air New Zealand" dünyada yeganə aviaşirkətdir ki, onunla Yer kürəsinin ətrafında dövr etmək mümkündür. Bu aviaşirkət 2012-2013-cü illərdə Piter Ceksonun "Hobbit" adlı reklam kampaniyasında iştirak etmişdi.

"Cathay Pacific Airways" - şirkəti 1946-cı ildə yaradılıb və Honq-Konqun beynəlxalq hava limanında yerləşir. Aviaşirkət mütəmadi olaraq bütün dünya üzrə 114 istiqamətə sərnişin və yük daşınmasını həyata keçirir. "Cathay Pacific" şirkəti "Skytrax" 5 ulduzlu reytinqinə sahib dünyanın 6 aviaşirkətindən biridir.

"Finnair" - 1924-cü ildə yaradılıb. Bu əsas bazası ilə Vantaa şəhərində yerləşən Finlandiyanın milli aviaşirkətidir. "Finnair" dünyanın 50 dövlətinə reyslər təşkil edir və 1963-cü ildən etibarən Avropanın ən təhlükəsiz hava daşıyıcısı hesab olunur.

"Emirates" - Dubayda yerləşən dünyanın ən nəhəng aviaşirkətlərindən biri olan "Emirates" şirkətinin əsası 1985-ci ildə qoyulub. "Emirates Airlines" şirkətinin marşrut xətti bütün dünya üzrə 130-dan çox şəhər və 60-dan çox ölkəni əhatə edir. Şirkətin aviaparkı dünyada ən gənclərdən biridir və 200 "Airbus" və "Boeing" təyyarələrindən ibarətdir. Hər həftə Dubaydan mindən çox təyyarə 6 qitəyə uçur.

"EVA Air" - əsası 1991-ci ildə qoyulub və Tayvanın böyüklüyünə görə ikinci aviaşirkətidir. Şirkət Asiya, Avropa və Şimali Amerikaya beynəlxalq reyslər təşkil edir. Buraya da hər il 6 milyon sərnişin daşınır. Şirkətin özünün Evergreen Club loyallıq proqramı mövcuddur.

"British Airways" - əsası 1974-cü ildə qoyulub və Böyük Britaniyanın nəhəng aviaşirkətlərindən biridir. Şirkətin baza hava limanları Heathrow və Gatwickdir. Bununla yanaşı, "British Airways" Oneworld Aviasiya İttifaqının üzvüdür. Şirkətin təyyarələri bütün dünya üzrə 222 reys həyata keçirir. Şirkət həmçinin Avropada ən böyük və gənc təyyarə parkına sahibdir.

"TAP Portugal" - əsası 1946-cı ildə qoyulub və Portuqaliyanın milli aviaşirkətidir. Şirkət Lissabonun Portela hava limanında yerləşir. Şirkət 14 mart 2005-ci ildən etibarən "Star Alliance"a daxildir. TAP Braziliyaya reyslər təşkil edən nəhəng operatordur. Hazırda TAP şəbəkəsinə 30 ölkədə 65 hava limanı daxildir. Şirkət gündəlik olaraq isə 1600 reys həyata keçirir.

"Etihad Airways" - əsası 2003-cü ildə qoyulub və BƏƏ-nin milli aviaşirkətidir. Şirkətin baş-qərargahı Abu-Dabidə yerləşir. Etihad ərəb dilindən tərcümədə "ittifaq" mənasını verir. Şirkət Yaxın Şərq, Avropa, Asiya, Avstraliya və Şimali Amerikaya 84 istiqamətdə yük və sərnişin daşınmasını həyata keçirir.

"Air Canada" - əsası 1937-ci ildə qoyulub və Star Alliance-ın yaradıcı-üzvlərindən biridir. Şirkət Monreal şəhərində yerləşir. "Air Canada" 5 qitə üzrə 175 istiqamətlərdə uçuşlar həyata keçirir. 23 iyul 1983-cü ildə Monrealdan uçuş həyata keçirən aviaşirkətin "Boeing 767-200" təyyarəsi şirkətin tarixinə "Gimli planeri" adı ilə daxil olub. Belə ki, uçuş zamanı təyyarənin yanacağı bitir. Bu zaman təyyarənin komandiri Robert Pirson idarəetmə panellərinin köməkliyi ilə təyyarənin öz idarəsi altına ala bilir və təyyarəni 60 sərnişin və 8 heyət üzvü ilə Gimli aviabazasına endirə bilir.

"Qantas Airways" - əsası 1922-ci ildə qoyulub və Avstraliyanın ən böyük aviaşirkətidir. Şirkət dünyanın ən qədim aviaşirkətləri siyahısında ikinci yerdədir. Həmçinin "Uçan kenquru" (The Flying Kangaroo) ləqəbinə sahibdir. Şirkətin baş-qərargahı Sidneydə yerləşir və 144 istiqamətdə uçuşlar həyata keçirir. "Qantas"ın təyyarə heyətinə 135 hava gəmisi daxildir.

**Təyyarədəki oturacağınızı diqqətlə seçin, çünki...**

Amma mütəxəssislər deyir ki, siz təyyarəyə minəndə də bəzi məqamları yaddan çıxarmamalısınız. Ən azından təyyarədə oturacağınız yeri seçəndə diqqətli olmağınız məsləhətdir. Təyyarədə ən etibarı oturacaq hansıdır? Bu mövzuda müzakirələr gedən zaman ən çox eşidilən cavab heç şübhəsiz ki, "təhlükəsizlik kəmərini taxdığınız hər bir oturacaq" olacaq. Belə ki, təhlükəsizlik kəməri havada yaşana biləcək təhlükələrdən qorunmanıza ciddi təsir edir. Oturacağın etibarlılığı isə təyyarənin tipinə görə dəyişir.

Airlineratings.com saytı qəza statistikalarını təhlil edərək, insan itkisinin çox olduğu qəza yerlərini üzə çıxarıb. Nəticədə qəza sonrası həyatda qalanların oturduğu oturacaqların yerləşdiyi bölgə incələnib. Qanad arxasında və təyyarənin ən arxa hissəsində oturanların həyatda qalma faizləri daha yüksəkdir. ABŞ-ın "Channel 4" kanalında yayımlanan "The Crash" (Qəza) adlı sənədli filmin prodüserləri bunu daha yaxşı təhlil etmək üçün bir araşdırma apardılar. Məlum olub ki, qabaq oturacaqlardakı sərnişinlərin yaşama şansı yoxdur. Amma təyyarənin yerdə qalan 78 faizinin sağ olaraq qurtulma ehtimalı var.

Araşdırmaya görə, oturacaq nömrəsi yüksəldikcə yaşama şansı da yüksəlir. Yeni təyyarənin arxa oturacaqlarında oturmaq daha etibarlıdır. "Popular Mechanics" adlı avtomobil və texnologiya jurnalı 1971-ci ildən bəri baş verən qəzaları bir-bir araşdırıb. Araşdırmanın nəticələrinə görə, arxa tərəfdə oturan sərnişinlərin 69 faizi, qanad üstündə oturan sərnişinlərin 56 faizi və qabaq tərəfdə oturan sərnişinlərin 49 faizinin sağ qalmaq ehtimalı var. Bütün hallarda təyyarənin arxa tərəfinin daha etibarlı olduğu üzə çıxır.

ABŞ-ın ən köklü və nüfuzlu təşkilatı olan Beynəlxalq Təhlükəsizlik Qurumunun (National Transportation Safety Board-NTSB) araşdırmasına görə, təyyarə ilə səyahət, avtomobillə səyahətə nisbətən 6, qatarla səyahətə nisbətən 2 dəfə daha etibarlıdır. Hər gün Yer kürəsi üzrə təxminən 100 min uçuş həyata keçirilir və bu sektora milyardlarla dollar xərclənir.

**Bu reysləri dayandırıblar, çünki orda qəza tez-tez baş verir**

Qəzalar yol açdığı acı itkilərlə paralel olaraq, bu sektora olan etibarı da sarsıdır. Fransa Sivil Havaçılıq Şirkəti (DGAC) dünya miqyasında müharibə və insident olan bölgələrdə uçuşa məhdudiyyətlər gətirdiyini açıqlayıb. Türkiyənin "Sabah" qəzetinin yazdığına görə, uçuş qadağası olan bölgələr Fransız hava yolu şirkətlərinin sıx-sıx uçduğu Ukrayna, Liviya, Suriya, İraq, Yəmən, Sudan, Güney Sudan, Somali, İranın cənub - şərqi, Əfqanıstan və Pakistandan ibarət 11 ölkəni əhatə edir.

Azadlıq Radiosu isə yazıb ki, Rusiyaya məxsus sərnişin təyyarəsinin Sinay yarımadası üzərində ziddiyyətli şəkildə qəzaya uğramasının ardınca Qərbin bir sıra hava şirkətləri Misirin kurort şəhəri Şarm əl-Şeyxə reyslərini dayandırıblar. Böyük Britaniyanın ardınca Fransa, Belçika və Hollandiya da öz vətəndaşlarına Misirin Şarm əl-Şeyx kurortuna səfərlərdən çəkinməyi tövsiyə ediblər. Almaniyanın hava şirkətləri bu şəhərə bütün uçuşlarını dayandırıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 67 (6681) 3 aprel 2017

## 20-ci uşaqlarını dünyaya gətirmək istəyirlər

**Böyük Britaniyanın Xeyşem şəhərində yaşayan ər-arvad sosial şəbəkə vasitəsilə elan etdilər ki, bu günlərdə onların 20-ci uşaqları dünyaya gələcək. Lenta.ru xəbər verir ki, əcnəbi media onların ailəsini "Britaniyanın ən böyük ailəsi" adlandırıb. 41 yaşlı Syu və 46 yaşlı Noel Redford ailələrindəki uşaqların fotosunu paylaşaraq, daha bir uşaqlarının da olacağını elan ediblər. Bununla yanaşı, onlar UZİ fotolarını da paylaşıblar. Növbəti uşaq sentyabrda dünyaya gələcək.**

29 mart tarixində Facebookda yayımlanan status 32 min layk və onlarla şərh yığıb. Sözügedən fotonun yayımlanması ilə ailə 250 min izləyici qazanıb. Bununla yanaşı, britaniyalı ailə İnstaqramda da səhifə yiyəsidir. Orada da onun 20 min izləyicisi var.

Qadın ilk dəfə 14 yaşı olanda hamilə qalıb. Həmin vaxt gənclər uşağı saxlamaq qərarına gəliblər. Çünki onların hər ikisini zamanında övladlığa veriblər. Qeyd olunur ki, ailə Noel Redfordun sahibi olduğu təndirxanadan dolanır. Onların həftəlik xərcləri 400 dollara yaxındır. 2016-cı ilin iyulunda məlum olub ki, Redfordların Fibi adlı qızları olub. Bu, ailənin 19-cu uşağı idi. Uşaqların ən böyüyünün 27 yaşı var. Məlumatlara görə, 2014-cü ildə Syu hamiləliyinin 23-cü həftəsində uşağını itirib.

## Sən qocalırsansa, beynin gözəlləşir

**ABŞ-ın Maunt Sinay Tibb Məktəbinin əməkdaşları müəyyən ediblər ki, insan beyninin bəzi xüsusiyyətləri yaş ötdükcə daha da təkmilləşir. İndiyə qədər belə hesab olunurdu ki, əqli qabiliyyətlər insan 20 yaşında olarkən öz zirvə nöqtəsinə çatır. Tədqiqatın nəticələri isə göstərdi ki, yaşlı insanlarda belə uzunmüddətli yaddaş nəinki zəifləmir, hətta danışıq qabiliyyəti, emosional intellekt və sosial vərdişlər daha üstün səviyyədə olur. Bunu "Daily Telegraph"a istinadən "İzvestiya Nauki" xəbər verir.**



Qısamüddətli yaddaş, qazanılmış bacarıqlar və düşünmə qabiliyyətinə gəlincə isə, onlar zaman ötdükcə həqiqətən də zəifləyir.

Mütəxəssislərin kəşfi qocalma effektinin rezus-makaka meymunları üzərində öyrənilməsi nəticəsində edilib. Müəyyən olunub ki, yaşlı meymunlarda beyin yeni biliklərin mənimsənilməsinə görə cavabdeh olan qəbuledici neyronların (sinir hüceyrələri) təqribən yarısını itirir. Bunungla belə, uzunmüddətli yaddaşa cavabdeh neyronlar toxunulmaz qalır.

## Nənəsini məzun gecəsinə dəvət etdi, məktəb rəhbərliyi icazə vermədi

**Amerikanın Alabama ştatındakı Yufola şəhərində məktəb administrasiyası yerli sakinlərdən birinə nəvəsinin məzun gecəsinə gəlməyə icazə verməyib. Bu barədə WTVM kanalı məlumat verib. Xəbərə görə, 18 yaşlı məzun Brays Meyn özü ilə bu tədbirə ancaq nənəsini gətirmək istəyib. Onun da məzun gecəsinə ancaq bir nəfərlə qatılmaq icazəsi olub. Gənc bu seçimini onunla izah edib ki, nənəsi zamanında öz məzun gecəsində iştirak edə bilmədiyi üçün o da bunu ona hədiyyə etmək istəyib. Məktəbin müdiri Stiv Hokins gəncə məsləhət görüb ki, daha gənc birini tədbirə dəvət etsin. O, öz məsləhətini onunla əsaslandırıb ki, təhsil müəssisəsinin qaydalarına görə, müvafiq tədbirlərə ancaq məzunlar və onları müşayiət edən, yaşı 20-ni keçməmiş şəxslər qatıla bilər. "Biz hər il məzunların bu tədbirlərə yaşlı adamları gətirmək təklifini rədd edirik" deyən müdirə görə, bu, sırf təhlükəsizlik məqsədi daşıyır.**

Məktəbin rədd cavabına baxmayaraq, uşağın nənəsi artıq özünə bal paltarı da hazırlayıb. Məktəbli rəhbərliyin bu qərarına etiraz əlaməti olaraq sosial şəbəkələrdə etiraz aksiyasına başlayıb və o, nənəsinin 8 apreldə keçiriləcək tədbirdə iştirakına israrla çalışır.






## Pandanı azad təbiətə buraxdılar, 2 ay sonra öldü

**Çinin Siçuan bölgəsində panda heyvan sığınacağından buraxılandan 2 ay sonra tələf oldu. Heyvan Liziping Nature Reserve adlı sığınacaqda qalırmış. Panda 2016-cı ilin 27 sentyabrında tələf olsa da, yerli media bu haqda ancaq indi yazır. Heyvan 2013-cü ildə dünyaya göz açıb. Onu vəhşi təbiətə ötən ilin mart ayından hazırlayırdılar və 2016-cı ilin iyulunda da təbiətə buraxıblar. İki ay sonra isə zoobağın işçiləri onu GPS vasitəsilə tapa biliblər. Heyvanın tapılmasına səbəb onun boynundan asılan və GPS-ə bağlı xüsusi cihaz olub. Araşdırmaçılar onun cəsədini yaralı vəziyyətdə tapıblar. Məlum olub ki, panda naməlum heyvanın hücumundan sonra sağ çiynindən, qulaq və pəncəsindən yaralar alıb. Heyvan qan zəhərlənməsindən sonra tələf olub.**




**QOÇ** - Kosmik enerji bucağının mərkəzində olduğunuzdan aktivliyiniz artacaq. Məişət qayğıları kimi xırda problemləri isə beyninizdən çıxarın. Daha çox bəşəri ideyalar barədə düşünün.

**BUĞA** - Özünüzü hər bir situasiyaya hazırlayın. Çünki ulduzların düzümü bu ərəfədə hər cür hadisə və insanlarla rastlaşma ehtimalınızdan xəbər verir. Öz mənafeyinizi əsas tutun.

**ƏKİZLƏR** - O qədər də səmərəli vaxt deyil. Mövcud situasiyalar ideyalarınızda, eləcə də qarşınıza qoyduğunuz məqsədlərdə donuqluq yaradacaq. Odur ki, qeyri-ənənəvi heç bir iş görməyin.

**XƏRÇƏNG** - Hər mənada uğurlu vaxtdır. Ətrafınızda olan hər bir olay əhval-ruhiyyənizə müsbət təsir göstərəcək. Bu axşam füsunkar bir məclisdə iştirakınız gözlənilir. Kiminsə əleyhinə danışmayın.

**ŞİR** - Ümumi məziyyətlərinə görə uğursuz vaxtdır. Hansısa gecikmiş planın reallaşmasına cəhd etməyin, yoxsa əliniz boşda qalacaq. Bu gün uzaq səfərə çıxmaq sizə səmərə verəcək.

**QIZ** - İşə az aludə olun. Çünki fəaliyyət müstəvisində passivlik baş qaldırdığından istirahətə daha çox yer ayırmalısınız. Günortadan sonra yeni əlaqələr yaratmaq üçün münasibdir.

**TƏRƏZİ** - Hazırda aparıcı mövqeyə malik olan Qoç bürcü əksər məsələlərdə sizin bürclə əkslik təşkil etdiyindən riskli işlərə girişməməlisiniz. Yalnız ailə-mənzil qayğıları ilə məşğul olun.

**ƏQRƏB** - Əsasən ailə-sevgi münasibətlərində irəliləyişlərə nail ola bilərsiniz. Planetlərin hazırkı mənzərəsi bu istiqamətdə sizə yaxından kömək edə bilər. Şəxsi büdcənizi dağıtmayın.

**OXATAN** - İxtiyarınızda olan bu təqvimi daha çox ibadətə, xeyirxah işlərə həsr edin. Günün ikinci yarısında yaxınlarınıza və ehtiyac sahiblərinə baş çəkin. Hər kəsi sevindirin ki, özünüz də sevinəsiniz.

**OĞLAQ** - Bu tarixdən başlayaraq pulla bağlı problemləriniz qismən də olsa, həll olunacaq. Əsas diqqətinizi bu yönümə istiqamətləndirməlisiniz. Hər hansı yeni işə başlamağa tələsməyin.

**SUTÖKƏN** - Enerjinizin artmasına rəvac verən bu gün maraqlı adamlarla görüşünüzə şərait yaradacaq. Öz hisslərinizi büruzə verməyin. İstənilən işgüzar sövdələşmələrdənsə çəkinməyin.

**BALIQLAR** - Maliyyə durumunuzun normal hala düşəcəyini bəyan edən ulduzlar bu istiqamətdə problemlərinizin azalacağını bildirir. Nahardan sonra yaxşı insanların dəstəyini alacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ağ ayı balalarını basıb yedi

**Fin zooparkında dekabrın əvvəlində dünyaya göz açmış iki balaca, ağ ayı itkin düşüb. Bu barədə lenta.ru saytı xəbər verir. Ranua zooparkının əməkdaşları şübhələniblər ki, ayıları anaları, Venera ləqəbli böyük ayı yeyib. Balaca ayıları sonuncu dəfə 18 dekabrda zooparkda görüblər. Saytın yazdığına görə, ayılar övladları zəif doğulanda onlardan imtina edir. O ayıları adətən zooparkın işçiləri yedirdir. Analoji hadisə 2008-ci ildə Nyunberq zooparkında baş verib. Həmin vaxt ağ ayı iki balasını öldürüb, onları yemişdi.**



Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100